# XOCALINI UNUTMA!

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 23 (5855) 27 fevral 2021-ci il | Qiyməti 30 qəpik

## Prezident mətbuat konfransı keçirdi



Bax:səh-2

## Cavid Qurbanov: "Qəbələyə çəkilən dəmir yolu xətti hazırdır"

**Ləkidən Qəbələyə çəkilən dəmir yolu xətti artıq hazırdır.**

Bu barədə jurnalistlərə açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib.



O qeyd edib ki, işlər artıq yekunlaşıb və dəmir yolu açılışa hazırdır.

Qeyd edək ki, Qəbələyə çəkilən biryollu xətt öz başlanğıcını Bakı - Böyük Kəsik dəmir yolu xəttinin Ləki stansiyasından götürür.

Yeni salınmış dəmir yolu xəttinin yan yollarla birlikdə ümumi uzunluğu 44,5 km təşkil edir.

## "Hərbçilərin maaşları ilə bağlı məsələ dövlət rəhbərliyinin nəzarəti altındadır"

**"Hərbçilərin maaşları ilə bağlı məsələ birbaşa dövlət rəhbərliyinin nəzarəti altındadır".**



Bunu APA-ya açıqlamasında Azərbaycan Respublikasının Birinci-vitse prezidentinin köməkçisi Elçin Əmirbəyov deyib. O bildirib ki, Azərbaycan dövləti öz əsgərinin qayğısına qala biləcək bir dövlətdir:

"Ümid edirəm ki, bu məsələdə hər hansı çətinliklər varsa, onlar da tez bir zamanda aradan götürüləcək".



### *Ərdoğan: "Xocalıda amansız şəkildə qətlə yetirilən qardaş-bacılarımızı rəhmətlə yad edirəm"*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı ilə bağlı "Twitter" hesabında paylaşım edib. Adalet.az-ın məlumatına görə, paylaşımda "29 il əvvəl Xocalıda amansız şəkildə qətlə yetirilən azərbaycanlı qardaş-bacılarımızı rəhmətlə yad edirəm..." - deyə, qeyd edilir.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## UCA ADAM: RƏCƏB TAYYİB ƏRDOĞAN



*26 fevral qardaş ölkənin cümhurbaşkanı sayın Rəcəb Tayyib Ərdoğanın doğum günüdür. Söylədiyi bir şeirə görə həbs olunan gündən sayın Ərdoğanı izləyirəm. Həbs olunanda da bir ziyalı kimi qəzetimizdə etirazımı bildirmişdim. Tanrı bu insandan heç nə əsirgəməyib - qeyri-adi natiqlik qabiliyyəti var, müdrik siyasətçidi, ədəbiyyatı, tarixi gözəl bilir, özü də təkcə Türkiyənin tarixini və ədəbiyyatını deyil, bütün türk xalqlarının tarixini və ədəbiyyatını bilir. Və qarşısına bir məqsəd qoyubsa, sonadək mübarizə aparmağı bacarır və Tanrı da həmişə ona yardımçı olur.*

**Bax: səh.2**

### *Putin Təhlükəsizlik Şurasının iclasında Qarabağı müzakirə etdi*

*Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının operativ iclasında Qarabağdakı vəziyyəti müzakirə edib.*

*Adalet.az-ın məlumatına görə, iclas zamanı sülhməramlıların, Rusiya Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının fəaliyyəti diqqət mərkəzində olub*

*Eyni zamanda, bu istiqamətdə beynəlxalq təşkilatlarla əməkdaşlıq və xarici tərəfdaşlarla münasibətlər müzakirə olunub.*



## "Şərqlə Qərb arasında körpülər yandırılır"

**Bax: səh.2**

# Prezident mətbuat konfransı keçirdi



**Dünən prezident İlham Əliyev yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirdi. Konfransda sualları cavablandıran ölkə başçısı bir sıra fikirlər səsləndirdi.**

***

Dövlət başçısı bildirib ki, planda Laçın və Zəngilanda da hava limanının tikintisi var. Bizim azad olunmuş ərazilərdə aeroport tikmək istəyimiz tək Füzuli ilə yekunlaşmır. Laçın və Zəngilanda da aeroport tikmək kimi planımız var".

### *"Bizim erməni xalqı ilə işimiz yoxdur"*

Dövlət başçısı bildirib ki, "Bizim erməni xalqı ilə işimiz yoxdur. Müharibə dövründə Ermənistan rəhbərliyindən ədavət, nifrətlə dolu açıqlamalar verilib. Mən isə deyirdim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycanda minlərlə erməni yaşayır və müharibə dövründə erməni əsirlərlə bizim davranmağımız bunu bir daha göstərir".

### *"Statusun ünvanını göstərmişəm, status haradadır, onu hər kəs bilir"*

Dövlət başçısı qeyd edib: "Mən öz çıxışlarımda statusun ünvanını göstərdim. Status haradadır, onu hər kəs bilir. Qarabağ aranı ilə, dağı ilə Azərbaycanın ayrılmaz hissəsidir. Onun bir hissəsində erməni əhali yaşayır".

### *İlham Əliyevdən jurnalistin sualına sərt reaksiya: Bu, sadəcə olaraq Azərbaycanı ittiham etməkdir*

**Prezident İlham Əliyev dünən keçirdiyi mətbuat konfransında İrandan iştirak edən jurnalistin terrorçularla bağlı sualına sərt reaksiya verib.**

Adalet.az-ın məlumatına görə, dövlət başçısı bildirib: "Siz bunu sual formasında verə bilərsiniz. Ancaq dediyinizin arxasında durmalısınız. Müharibə zamanı hər hansı terrorçu qrupların iştirakı ilə bağlı hesabatlar, məlumatlar, dəlil, sübut yoxdur. Bu, uydurulmuş məlumatdır. Təəssüf edirəm ki, dost ölkədən olan jurnalist belə bir sual verir. Azadolunma əməliyyatında heç bir terrorçu iştirak etməyib. Bunun heç bir sübutu yoxdur. Bu, sadəcə olaraq Azərbaycanı ittiham etməkdir. Siz xanım olaraq dost ölkədən gəlmisiniz. Xahiş edirəm, sualınızda məsuliyyətli olasınız". Daha sonra jurnalist sualın səhv anlaşıldığını və əslində, digər terrorçu qruplar (İŞİD) haqqında sual ünvanladığını bildirib.

## İlham Əliyev və Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər

**XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.**

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi. Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

*Aqil ABBAS*

# UCA ADAM: RƏCƏB TAYYİB ƏRDOĞAN

*26 fevral qardaş ölkənin cümhurbaşkanı sayın Rəcəb Tayyib Ərdoğanın doğum günüdür. Söylədiyi bir şeirə görə həbs olunan gündən sayın Ərdoğanı izləyirəm. Həbs olunanda da bir ziyalı kimi qəzetimizdə etirazımı bildirmişdim. Tanrı bu insandan heç nə əsirgəməyib - qeyri-adi natiqlik qabiliyyəti var, müdrik siyasətçidi, ədəbiyyatı, tarixi gözəl bilir, özü də təkcə Türkiyənin tarixini və ədəbiyyatını deyil, bütün türk xalqlarının tarixini və ədəbiyyatını bilir. Və qarşısına bir məqsəd qoyubsa, sonadək mübarizə aparmağı bacarır və Tanrı da həmişə ona yardımçı olur. Təkcə Türkiyə türkləri arasında deyil və bütün türk xalqlarının arasında böyük nüfuz qazanıb. Cəsarətlidir. "Dünya beşdən böyükdür" - deyən bu qətiyyətli şəxs Türkiyəni sındırmaq istəyən, Türkiyəyə tələ qurmaq istəyən dünyanın özündən deyən böyük dövlətlərini və həmin dövlətlərin başçılarını hakimiyyətə gəldiyi gündən yerində oturtmağı bacarıb.*



*Möhtərəm prezidentimiz İlham Əliyevin dəmir yumruğu kimi, Onun da dəmir yumruğu var.*

*Türkiyə qüdrətli dövlətdir, amma açığını desək, sayın Ərdoğan hakimiyyətə gələnədək dünyada o qədər də söz sahibi deyildi. Və bu gün dünya Türkiyə ilə hesablaşmaq zorundadı. Orta Şərqdə, hətta Avropada Türkiyəsiz hansısa bir məsələni həll etmək mümkün deyil.*

*Bunu biz Suriyada da görürük, İraqda da, Liviyada da, Fələstində də, Kosovada da, əlacsız Afrika ölkələrinə dayaqda da.*

*Böyük ürək sahibidir və çox humanistdir. Hər dövlətin qüdrəti deyil ki, 4 milyondan çox Suriya qaçqınını bağrına bassın. Və görün neçə ildir ki, bu qaçqınlara Türkiyə təmənnasız yardım edir, heç də onları öz vətəndaşlarından ayırmır.*

*Atatürkün məşhur bir fikri: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", sayın Ərdoğan hakimiyyətə gələndən bu vəsiyyəti özünün ən ümdə vəzifəsi hesab edib. Türkiyə həmişə Azərbaycanın yanında olub. İkinci Qarabağ müharibəsində bunu bir daha sübut etdi və deyək ki, Azərbaycanın yanında olmaqla dünyaya meydan oxudu.*

*Tale elə gətirib ki, sayın Ərdoğanla görüşmək, belə demək mümkünsə, dərdləşmək mənə də qismət olub. Hələ mənə bir gözəl qalstuk da bağışlayıb. Heyfim gəlir, taxmıram, başqa hədiyyələr kimi qoruyub saxlayıram.*

*Əskişəhərdə Türk dünyası yazarlarının qurultayı keçirilirdi. Həm keçmiş SSRİ-dəki türk respublikalarından, bügünki Rusiya Federasiyasındakı Tatarıstanın, Başqurdustanın, hətta Sibirdə yaşayan türk xalqlarının, İranın, Kiprin, İraqın və s. yazarları bu qurultayda iştirak edirdilər. Onu da deyim ki, qurultay iştirakçıları böyük bir sevgi ilə Anar müəllimi yenidən Türk Yazarlar Birliyinin sədri seçdilər. Qurultaya Avrasiya Yazarlar Birliyinin genel başkanı Yaqub Ömərəoğlu sədrlik edirdi.*

*Qurultayın sonunda Yaqub bəy bildirdi ki, Baş bakan Rəcəb Tayyib Ərdoğan (cümhur başkanlığı seçkiləri ərəfəsi idi) hər ölkədən gələn bir nəfər yazarı görüşə dəvət edib. Onu da qeyd edim ki, hər ölkədən 10-15 nəfər, bəzisindən hətta 20 nəfər qurultayda iştirak edirdi.*

*Biz də gərək ki 6 nəfərlə təmsil olunurduq. Təbii ki, görüşə Anar müəllim gedəcəkdi.*

*Amma axşamüstü Yaqub bəy bildirdi ki, Baş bakanlıq Anar müəllimdən başqa sizi də, xanımınızı da görüşə dəvət edir. Hər ölkədən bir nəfər getsə də, Azərbaycandan biz üç nəfər İstanbula görüşə getdik. Görüş boyu Yaqub bəy Tatarıstandan, Başqurdustandan, Özbəkistandan, Qazaxıstandan, Qırğızıstandan, Sibirdən gələn yazarları sayın Ərdoğan üçün tərcümə edirdi. Anar müəllimə söz verildi. Onu da deyim ki, görüş boyu diqqəti Azərbaycandan gələn nümayəndələrdə idi. Anar müəllim Türkiyə və Azərbaycan, eləcə də türkdilli ölkələrin mədəni və hətta siyasi əlaqələrinin daha necə genişləndirilməsi, gücləndirilməsi ilə bağlı fikirlərini söylədi. Sonra söz mənə verildi. Mən də təbii ki, Türkiyə və Azərbaycanın mədəni əlaqələrinə toxundum və xahişim də o oldu ki, "Dünya ədəbiyyatı" seriyası olduğu kimi, türk xalqlarının da yazarlarının belə bir seriyası çap edilsə, özü də bütün xalqların öz türkcəsində, Türk dünyasına böyük bir hədiyyə olar.*

*Xanımı həmişə söhbətlərində sayın Ərdoğanı "Uca Adam" adlandırır.*

*Dedim:*

*- Sayın Ərdoğan, xanımınızın dediyi kimi, siz doğrudan da Uca Adamsınız.*

*Gülümsədi və dedi:*

*- Qardaşım İlham Əliyev də Uca Adamdı.*

*Daha sonra belə söylədim:*

*- Cümhur başkanlığı seçimidir. Mən təəssüf edirəm ki, seçkilərdə oy vermək imkanım yoxdur. Özüm Türkeşçi olsam da, oy vermək səlahiyyətim olsa məmnuniyyətlə oyumu sizə verərdim.*

*- Nədən?*

*- Çünki bu gün sizi Türkiyədə əvəz edə biləcək bir siyasətçi, bir lider görmürəm.*

*Və daha sonra türkcə çap olunmuş "Dolu" romanımı və "Dolu" filminin diskini sayın Ərdoğana təqdim elədim. O da mənə təşəkkür elədi, bir qalstuk bağışladı, xanımıma da bir kəlağayı.*

*Və təbii ki, biz tərcüməçisiz danışırdıq və bir-birimizi də çox gözəl anlayırdıq.*

*26 fevral sayın Rəcəb Tayyib Ərdoğanın doğum günüdür. Onu bu gözəl gün münasibətilə ürəkdən təbrik edirəm. Təkcə onu yox, həm də Türkiyə türklərini də - Tanrının onlara belə bir lider göndərdiyinə görə ürəkdən təbrik edirəm. Elə bizim xalqımızı da təbrik edirəm ki, belə bir QARDAŞIMIZ var.*

*Tanrı Möhtərəm Prezidentimiz İlham Əliyevlə Sayın Rəcəb Tayyib Ərdoğanın qardaşlığını yaman gözdən, nəzərdən qorusun.*

*Tanrı Türkü qorusun!*

# "Şərqlə Qərb arasında körpülər yandırılır"

**Rusiya ilə bütün bağlarımızı qoparmamalıyıq.**

Bu sözləri Almaniya Prezidenti Frank-Valter Ştaynmayer deyib.



"Münasibətlərimizin bu çətin dönəmində bütün bağlarımızın qopmamasına diqqət etməliyik", - deyə prezident bildirib. O, Berlin, Brüssel və Vaşinqtonun Moskva ilə əlaqələrin gələcəyini müzakirə etməsini məmnuniyyətlə qarşıladığını söyləyib: "Son 20 ildə Qərb ilə Şərq arasındakı bir çox körpülər yandırılıb. Bu, xüsusilə böhran dönəmində narahatedici durumdur və mən bunu Moskvaya açıq şəkildə bildirirəm. Qarmaqarışıq münasibətlər çərçivəsində yaşasaq da, keçmişimiz və gələcəyimiz var. Daha sülhsevər Avropanın gələcəyinə görə məsuliyyət daşıyırıq".

**Mehriban**



Vilayət Quliyev

# Bəs nə etməli?

*Dünən Beynəlxalq ana dili günü idi.*
*Bu gün Mirzə Cəlilin doğum günüdür.*
*Biri-birini qəribə şəkildə tamamlayan günlərdir.*
*Mirzə Cəlil 100 il əvvəl "Anamın kitabı"nı yazmışdı.*
*"Anamın kitabı"nda ana dilinə xor baxan bir ailə təsvir olunur.*
*Biri rusca danışır.*
*Biri farsca danışır.*
*Biri Osmanlı türkcəsi ilə danışır.*
*"Ananın kitabı" -ana dili isə yalnız çoban-çoluğun ümidinə qalıb...*
*Bu ailə o dövrün Azərbaycanı idi.*
*Yüz il keçib, çox az şey dəyişib.*
*fb-də şəkillər paylaşırlar...*
*Biri şərhini rusca yazır.*
*Digəri ingiliscə yazır.*
*Üçüncüsü Anadolu türkcəsində yazır.*
*Arada bir-iki çoban-çoluq da öz dilimizdə.*
*Tam bir "Anamın kitabı" mənzərəsi.*
*Farsca yazanlar nədənsə bu cameəyə qoşulmurlar...*
*1990-cı ilin Qara Yanvarı bizi ayıltmadı.*
*Qarabağ savaşındakı qələbədən sonra dilinə, dəyərlərinə sahib çıxan, milli qürurla yaşayan qalib millət olmağı da bacarmırıq.*
*Bəs nə etməli?*



Səxavət Məmməd

# Bunda gülünəsi bir şey görmürəm

*Paşinyanın "İsgəndər" raketi ilə bağlı açıqlamasına gülürük. Əslində bunda gülünəsi bir şey görmürəm. Savaş meydanında məğlub olub, sərhədlərini Rusiya qoruyacaq (102), yenə Rusiyanı zərbə altına qoyur, bu heç. Paşinyanın bu açıqlaması həm də, onu göstərir ki, Ermənistan savaş meydanındakı məğlubiyyətin səbəblərini araşdırır, dərs çıxarmağa çalışır. Dolayısı ilə gələcəyini düşünür.*

*Biz nə edirik? Ağzın açana deyirik ki, qələbəmizə tez ol sevin. Görəndə ki, sual verən var, əvvəl erməni dəyirmanına su tökən damğası vurur-dular, indi də qələbəni gözü götürməyən deyirlər. Sevindik də. Təkrar edirəm, fəth etməmişik, torpaqlarımızı işğaldan azad etmişik. Bir ömür boyu sual verməyək ki, müharibədə qalib gəlmişik?*

*Biz necə dərs çıxarırıq? Hərbçilərin maaşını aşağı salaraq? Guya bizim raketlər hamısı partladı? Ərazidə olanlar yerə mıxça kimi çalınmış az raket görüb? Sizin düşüncənizə görə ancaq məğlublar dərs çıxarmalıdır? Elə bu düşüncə tərzinə görə də, Spiker Sahibə Qafarova çəkinmədən " Qarabağ döyüş bölgəsi deyil" deyə bilir. Bununla içində razılaşıb, hədəfə çevrilməmək üçün " düz deyir" deyə bilməyənlər var. Ortada bir bəyanat varmış. Ona qalsa, BMT-nin 4 qətnaməsi, atəşkəs müqaviləsi də vardı. Torpağı təhvil vermirdilər, üstəlik atəşkəs dövrü kifayət qədər hərbi və mülki itki vermişik. Ortada sülh müqaviləsi yoxdur. Sülh müqaviləsi olacaq, müharibə ehtimalı sıfıra bərabərdir. Bu o demək deyil ki, ağzımızı ayırıb oturmalı, qalib gəlmişik deyib, bütün günü sevinməliyik. İtkilərimizin az olmasına içi mən qarışıq sevinirik. Döyüş hazırlığı yüksək olsaydı buna daha çox sevinərdik də. Düz deyil bəlkə?*

*Heç kim qarantiya verə bilməz ki, bölgədə bir də müharibə olmayacaq.*

*Gör vəziyyət hansı həddə çatıb ki, insanların düşüncəsinə belə qarışırlar. İnsanları robotlaşdırmaq istəyirlər. Bu niyə olmadı? Qalib gəlmişik sevin. O niyə olmadı? Qalib gəlmişik sevin!*



Fazil Mustafa

# Bu qadın nə danışdığını bilmir...

**Sosial şəbəkə təxribatçılarından biri də Aynur Məcidova adlı şəxsdir. "Ağ yol", İnkişaf qrupu adlı səhifələrdən paylaşımlar edərək "Hərbçilərin maaşının kəsilməsini istəyən spikerin cavabın xalq versin. Bu qadın nə danışdığını bilmir..." formasında Milli Məclisin sədri Sahibə Qafarovanın fotosunu yerləşdirərək təxribatçı çağırış edir. Milli Məclisin iclasında spiker hərbçilərin maaşının kəsilməsi tələbi ilə ümumiyyətlə hansısa fikir ifadə etmədi. Sadəcə bildirdi ki, "hazırda Qarabağ döyüş bölgəsi deyil". Burada yanlış olan nə var ki? Yəni Qarabağda hazırda döyüşlər getmir. Kimsə ermənilərin təxribatçı adddımlarından narahatçılıq ifadə edə bilər və ya gələcəkdə döyüşlər başlaya bilər, ancaq hazırda ən azı imzalanan bəyanata görə döyüşlər dayandırılıb. Hərbçilərin maaşlarının lazımi qaydada verilməsinin də Milli Məclisdə tərəfdarı olmayan kimsə tanımıram. O halda bu nə çirkin təbliğatdır aparılır?**

**Kimliyi məlum və ya məchul olan bu kimi şəxslərin paylaşımlarına diqqətlə yanaşmaq lazımdır. Olmayan bir şeyi öz istədikləri kimi manipulyasiya edib xalqı təhrikedici çağırışlarla çaş-baş salmağa çalışırlar. Bu düşünülmüş bir üslubdur, yalanı uydurduqdan sonra məsələnin mahiyyətinə varmadan hər kəs əsassız ittihamlarını konkret şəxsə yönəltməyə başlayır. Sonra da ilkin mənbə yoxa çıxır. İndi bu Aynur Məcidova adlı təxribatçı uydurduğu "hərbçilər maaşı kəsilsin" cümləsini hansısa mənbədən axtarıb tapıb göstərə biləcəkmi? O boyda millətin gözü qarşısında həyasızcasına bu cür qondarma ittihamları tirajlayanda buna inananlar da özlərini sorğulasalar daha yaxşı olardı.**



Rauf Qərib Alagöz

# YAS QİYBƏTİ

***Dedilər "qonşu Həsən kişi intihar edib", yığılıb getdik. Biz çatana kimi yuyub kəfənləyib gətirib tabutda qoymuşdular evin ortasına. Molla quran oxuyurdu.***

Həsənin anası ağlayırdı:

***- Dedim alma ...lı qızını. Oralılardan adama arvad olmaz. Oğlumun öyünü yıxdılar.***

Həsənin Bacısı:

***- Ay qardaş, balaların yedi başını, ay qardaaaaş.***

Arvadı:

***- Məni borc içində qoyub hara getdin, ay öyü yıxılmış.***

Qızı:

***- Mən nişanlımın ailəsinin üzünə necə baxacam. Deyəcəklər atası intihar edib.***

Oğlu dostuna:

***- Sən birlərsən, evi, maşını adıma necə keçirə bilərəm?***

Qonşu Fatma xala pıçıldayırdı:

***- Deyirlər arvadı, bacısı gəzirmiş, ona görə asıb özünü.***

Qonşu Şakir kişi:

***- Qumara Borcu var imiş, öldürüb sonra asıblar.***

Uzaq qohum:

***- Axır zamanlar gözümə nəsə birtəhər dəyirdi. Nəsə atırdı deyəsən. Beynini qurutdu.***

Başqa bir qonşu:

***- Görəsən ehsan verəcəklər? Verməyəcəklərsə, pul da yazdırmaram.***

Başqa bir qohum:

***- Mənə 100 manat borcu var idi. Batdı.***

Tanımadığım biri:

***- Deyirlər kişilikdən kəsilibmiş, ona görə özünü öldürüb. xixixi***

Molla:

***- Camaat, Mərhuma haqqınızı halal edin.***

Camaat:

***-Halal olsun, yaxşı adam idi.***

İntihar edən kişi idi. Gör qadın intihar eləsə, arxasından nələr deyəcəkdilər...

**Azərbaycan Respublikası Ali Baş Komandanının rəhbərliyi altında torpaqlarımız erməni terrorçularından azad edildikdən sonra ölkəmizdə quruculuq işləri davam etdirilir. İşğal nəticəsində dağıdılmış ərazilərin bərpa-quruculuq işlərinə başlanması ilə yanaşı, torpaqlarımızın azad olunması zamanı şəhid olan və yaralanaraq əlil olan qəhrəman əsgərlərimizin ailə üzvlərinin qayğısı da ölkə başçımızın daim diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə**



# ŞƏHİD AİLƏLƏRİ DAİM DİQQƏT MƏRKƏZİNDƏ OLACAQ

**əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib.**

Bu kompleksdə 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Cənab İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək. Açılış zamanı şəhid ailələri və müharibə əlilləri ilə görüşən prezident İlham Əliyev çıxışında bildirdi ki, ***"Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada otuz bina inşa edilib. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 nəfərlik məktəb inşa edilir. Yeni yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib".***

Şəhid ailələri və müharibə əlillərinə qayğı hər bir istiqamətdə cənab prezidentin diqqət mərkəzindədir. Şağan qəsəbəsindəki reabilitasiya mərkəzi əsaslı təmirdən sonra yenidən istifadəyə verilib. Bu mərkəzdə minlərlə qazi müalicə alacaq, sağlamlığını bərpa edəcək. Eyni zamanda müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün ən müasir protezlər sifariş olunub. Ayağını itirmiş qazilərimizin bir çoxu protezlərlə təmin olunub və onlar artıq normal həyata dönə biliblər. Bu kateqoriyadan olan insanlara göstərilən qayğıdan danışan ölkə başçısı, Azərbaycanın bu sahədə dünyada ən qabaqcıl yerlərdə olduğunu bildirdi: ***"Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumatlara görə, təqribən 6-7 min işğalçı məhv edilib. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir... Bizim bu sahədəki siyasətimiz birmənalıdır".***

Həqiqətən də, erməni KİV-lərinin və saytlarının, sosial şəbəkə istifadəçilərinin məlumatlarında, nəinki Ermənistan dövləti tərəfindən heç bir qayğı göstərilmədiyinin, hətta öldürülmüş və ya itkin düşmüş erməni əsgərlərinin tapılıb ailələrinə təhvil verilməsi istiqamətində heç bir iş görülmədiyinin şahidi oluruq. Minlərlə ölmüş və itkin düşmüş ailə üzvlərinin müxtəlif aidiyyatı nazirliklər qarşısında toplaşaraq imdad gözləməsini müşahidə edirik. Hətta ölkə rəhbərliyinin bu ailələrə biganəliyi üzündən onların bəziləri rusiyalı reportyorlara verdikləri müsahibələrdə - artıq ümidlərini kəməklik üçün yalnız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət etməyə bağladıqlarını bildirirlər.

**Müharibə itkisiz olmur. Ulu öndər və onun varisi cənab İlham Əliyev 30 ilə yaxın sürən işğal dövründə dəfələrlə məsələnin müharibə yolu ilə deyil, siyasi danışıqlar yolu ilə həllinə çalışsa da, qarşı tərəf hər dəfə bir bəhanə ilə məsələnin danışıqlar yolu ilə həll olunmasına mane olurdu.**

**Rüstəm Hacıyev**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 23 (2204) 27 fevral 2021-ci il

# Tarixi qələbə

(əvvəli qəzetin 23 fevral sayında)

**Paşinyanın həqiqətdə nəyi olduğu bilinməyən , sənəddə isə arvadı olan Anna Akopyan hərbi paltar geyinib əlində avtomat tutaraq ağzı aşağı uzanıb atəş açmağı məşq edirdi.Burda da o adət-ənənəsinə xəyanət edirdi.Erməni qadınlarının işi ağzıüstə yox,arxası üstə uzanmaq olub.O bu hərəkəti ilə erməni qadınlara nümunə göstərib qadın batalyonu yaratmaq istəyirdi.Ermənistanda kişi yox idi bizimlə vuruşmağa.Olsaydı İlham Əliyev Paşinyana"gəlin,təkbətək,kişi kimi vuruşaq"deyəndə Ermənistanda bir kişi çıxıb deyərdi:hazırıq.Deyən olmadı.Onabuna zəng eləyib yalvardılar,kömək istədilər.**

Erməni qadınları səfehlikdə,ağılsızlıqda heç də ərlərindən geri qalmırdılar.Müharibəni dayandırmağa çağırış etməkdənsə sərsəm quldurları daha da qızışdırırdılar.Axırı nə oldu?Saysız-hesabsız hərbi qulluqçuları,cavan-cavan oğlanları şərəfsizcəsinə həlak oldular.Nahaq yerdə bizim də üç minə yaxın igid əsgərlərimiz,ərən oğullarımız şəhid oldular.Bizimkilər müqəddəs torpaqlarımız uğrunda canlarından,qanlarından keçdilər.Siz ermənilər nədən ötrü murdar köpəklər kimi gəbərdiniz.Özgə torpağını mənimsəmək üçün?!Arzunuz gözünüzdə qaldı!

***Allaha min şükür!Şəhidlərimizin qanı yerdə qalmadı.Biz torpaqlarımızı da qaytardıq,qisasımızı da aldıq.Amma erməni qadınları qoy bu savaşdan nəticə çıxartsınlar.Ana bətnində olan uşaqlarına"Türk bizim düşmənimizdi"ideyasını yeritməsinlər.Erməni qadınları Azərbaycanlı qadınlardan analıq duyğularını öyrənsinlər.Erməni qadınları özlərinin Anası ilə (ona xanım sözü yaraşmır)bizim birinci xanımımızı-Mehriban xanımı müqayisə etsinlər.***

Mehriban xanım da müharibə ərəfəsində hərbi paltar geyinirdi.O, həyat yoldaşı və silahdaşı ilə birlikdə cəbhə bölgələrinə gedirdi.Mehriban xanım Ağdam məscidinə də hərbi paltarda daxil olmuşdu!Bayrağımız rəngində parçaya bükülmüş Müqəddəs "Qurani-Kərimlə".O, parçanın arasından kamali-ədəblə"Quran"ı götürüb öpdü,gözünün üstünə qoydu,sonra etiramla Ali Baş Komandan uzatdı.Ali Baş Komandan da həmin etiramla müqəddəs kitabı öpüb gözünün üstünə qoydu və "Quranı"Ağdam məscidinə bağışladı

İlham Əliyev "mən xoşbəxt adamam"deyirdi.Haqqı var idi! O,deyirdi:"mən nəyi nə vaxt eləmək lazım olduğunu yaxşı bilirəm".Həyat,zaman onun sözlərini təsdiq etdi.Onun ən böyük arzusu təbii ki torpaqlarımızı vəhşi düşmənlərdən azad etmək idi.Elədi.Torpaqlarımızı da azad elədi,yaşayış məntəqələrimizidə,abidələrimizidə,dini ocaqlarımızı,meşələrimizi,çaylarımızı,təbii ətimizi vəhşilərdən,vandallardan azad elədi.Xalqla birlikdə,ordumuzla birlikdə!

Zori Balayan indi nə fikirləşir görəsən?"Ocaq" kitabında bu məlun quldur yazırdı: azərbaycanlılarla -bu vəhşi köçərilərlə bir yerdə yaşamaq mümkün deyil Kimdir vəhşi ay nanəcib? Azərbaycanda on minlərlə erməni yaşayırdı .Özü də ən yaxşı yerlərdə.Ən yaxşı işlərdə işləyirdilər.Qarabağda yaşayan əsilsiz-köksüz,nəcabəti bəlli olmayan ermənilər göydən düşmüşdülər"Onlar öz müqəddəratlarını özləri həll etmək istəyirlər".Siz bu xəstə təxəyyüllə nə qədər yaşamaq istəyirsiniz?Əlinizdə dəsmal gəzdirə-gəzdirə,yaltaqlana-yaltaqlana,ləyaqətinizi alçalda-alçalda,dondan -dona girə-girə,arvadınızı,qızınızı şərəfsiz yola salmaqla yaşadığınızı bütün dünya bilir.Pulunuz ola bilər.Min bir fırıldaqla,dilənçiliklə qazana bilərsiniz.Amma ləyaqət və şərəf bazarda satılmır.Bu Allah vergisidir.Allah sizə bu ləyaqəti verməyib.Çünki sizin Allahınız yoxdur.Siz Allahsız,adam qiyafəsində görünən kabuslarsınız.Siz naşükür,nankor,çörək yediyiniz təknəyə tüpürən,yalançı,min sifəti olan şərəfsizlərsiniz!

***Torpağımızda yer verdik,dediniz bizim torpaqdır.Mətbəximizi mənimsədiniz,mədəniyyətimizi,musiqimizi oğurladınız ,dediniz bizimdir.Tarixi abidələrimizə sahib çıxmaq istədiniz.Bu qədər yalan olarmı?Sizin bircə sözünüz yalan olmaya bilər.Əgər adamlığınız çatsa ,etiraf edə bilsəniz ki,dünyanın ən rəzil,ən qəddar, ən alçaq,ən oğru,ən naqis,ən qırmızı milləti ermənilərdir-bax bircə bu yalan olmaz!***

İşğal elədiyiniz ərazilərimizdən xalçalarımızı oğurlayıb xarici ölkələrdə erməni xalçası adı ilə satdınız.Siz qoyun saxlamırsınız.Xalça qoyun yunundan toxunur.Siz özünüzə oxşayan donuz saxlayırsınız.Donuz qılından da xalça toxuna bilməz.Donuz ətindən dolma da olmur.Dolmanı erməni xörəyi kimi təqdim edirsiniz.Mahnımızı,rəqsimizi oğurlayıb ad da tapa bilmirsiniz.Yenə deyirsiniz bizimdi.Adamda üz yaxşı şeydir.Nə üzlə indi siz Qarabağda yaşayacaqsınız?!Heyif ki,sizi sonuncu erməniyə qədər məhv edə bilmədik.Havadarlarınız qanınızın arasına girdi.Nə vaxtsa xəstəliyiniz yenə baş qaldıracaq.İndi dünyanı "coronavirus"deyilən pandemiya cənginə alıb.Nə vaxtsa alimlər onun vaksinini tapacaqlar.Dünyada ən qorxulu virus isə sizsiniz-"armyanovirus".Bu virusun dərmanı tapılmayacaq.



Min bir murdar sifətinizdən biri də özünüzü "məzlum ,əzabkeş"millət kimi qələmə verməyinizdir.Məzlumluqla Xocalı faciəsini törətdiniz,rayonlarımızda daşı daş üstə qoymadınız.Zalım olsaydınız görəsən nə fəlakətlər törədərdiniz?Qarabağın və ətraf rayonların xarici jurnalistlər tərəfindən Xirosimaya bənzədilməsinə,Ağdamın "ruhlar şəhərinə" çevrilməsinə həmin bu "məzlum,fağır,əzabkeş"ermənilər bais olublar.

Demokratiyadan dəm vuran BMT,Avropa şurası,ATƏT-in Minsk qrupu 30 il ərzində bu vəziyyəti görməmək üçün kor olmalı idilər!Afrikanı qan çanağına döndərən Fransa nə haqla demokratiyadan danışa bilər?İki dəfə dünya müharibəsi törətmiş,altmış milyondan çox insanın məhvinə səbəb olmuş Almaniya hansı haqq-ədalətdən danışa bilər?Dunyanın yarıdan çoxunu müstəmləkəyə çevirən ingilislər məgər ermənilərin qəsbkar olduqlarını görmürdülər?

İlham Əliyev haqlı olaraq Avropa şurasına,ATƏT-in Minsk qrupuna,BMT-yə,dünyanın başqa güc strukturlarına "hardasınız,niyə susursunuz"sualını ünvanlayırdı.

***Bütün basqılara, təhdidlərə, hədə qorxulara, haqsızlıqlara, sinə gərdik. Ali Baş Komandan İlham Əliiyevin xalqla birliyi, xalqın ona etibarı, inamı və etimadı qələbənin qazanılmasında əsas amil idi. Ali Baş Komandan ordumuza güvəndi bu qələbənin məntiqi nəticəsi idi. Şuşa döyüşləri hərb tarixinə unikal bir hadisə kimii yazıldı.***

Uzun illərdir sinəmdə qövr eləyən bir yara sağaldı. Bu nə yara idi? Rusiya- Çeçenistan müharibəsi zamanı bir televizya jurnalisti on üç yaşlı çeçenlə müsahibəni göstərirdi.Əlində avtomat tutmuş bu uşaqdan müxbir soruşdu:qorxmursan,bu yaşda güclü orduya qarşı vuruşursan? Uşaq ədalı-ədalı dedi: "ya ne azerbaydjanets"İndi həmin çeçen azərbaycanlı igidlər haqqında nə fikirləşir? Bu da erməni təxribatı deyildi ki?

***Bəlkə də mən hamıya məlum olan faktları sadaladım.Hər halda ürəyimdən keçənləri,duyğularımı paylaşmaq istədim.Qələbə qazandıq!Xalqımızın gözü aydın!Müharibə qurtardı.Allah şəhidlərimizə rəhmət eləsin.Şəhid ailələrinə Allahdan səbr diləyirəm.Müharibə qurtarıb,amma mübarizə davam edir.Paşinyanı məğlub etdik.İndi növbə Koçaryanın və Sərkisyanındır.Arxayınlaşmaq,düşmənə bel bağlamaq olmaz.Ermənilər nə vaxtsa yenə qudura bilərlər.Onlar indi yaralı qaban kimidirlər.Atalar demişkən:itlə dostluq elə,çomağı yerə qoyma.Erməninin başından çomaq əskik olmamalıdır!Unutmayaq ki,içimizdə cildini ad- familyasını dəyişmiş minlərlə erməni vardır.İndi biz daha ayıq-sayıq ,daha ehtiyatlı olmalıyıq.***

Deyiləsi sözüm çoxdur.Lakin oxucuları yormaq da istəmirəm .Sözün ən yaxşısını Ali Baş Komandan,Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliiyev deyib:"Özümü çox xoşbəxt adam hesab edirəm.Çünki bu qələbə bizim ruhumuzu,əyilməz ruhumuzu göstərdi.Göstərdi ki,Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız,lap balaca uşaqlar,yaşlı insanlar,o torpaqları tərk edənlər,qayıtmaq arzusunda olanlar,o torpaqlarda heç vaxt olmayan,amma o bölgələrdən olan gənc nəslin numayəndələri bir arzu ilə,biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik.Bu gün bizim bütün arzularımız çin olub.Bu,hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir.Artıq müharibə arxada qaldı. Biz döyüş meydanında,siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf,təhlükəsizlik dövrü olacaqdır".

**Gözlərim önündə iki qüdrətli dövlət başçısı dayanır:Rəcab Tayyib Ərdoğan,İlham Əliyev!Var olsun Türkiyə-Azərbaycan qardaşlığı!Bir də İlham Əliyevin düyünlənmiş yumruğu və əzəmətli səsi:Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!Eşq olsun Azərbaycan xalqına!Yaşasın Azərbaycan!**

***Ramiz İsmayıl***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Xocalı Simfoniyası"

### (Rekviyem poema)



*Nurəngiz GÜN*

İlahi! Sən Onlara rahatlıq ver...
İlahi! Təskin et!..
Sən onlara səma nəğmələri göndər,
təsəlli səp...

***

Yox, Rüzgar! O cürə əsmə sən!
Torpaqda...
Torpağın altında
dipdiri ölülər var!
Diksinə bilər Onlar...
Alt-üst etmə torpağı, ey Rüzgar,
Onlar onsuz da yazıq!
Tələf olubdur, Onlar!

***

Hə, Rüzgar... Bəli, Rüzgar!
Orda Ölülər yatır...
Orda Ölülər dip-diri! Oyaqdır,Ölülər...
Zikkələri,səsləri oyaqdır!
Əlavə zınqırov istəmir,
onların nə təngizar qulaqları,
nə yorğun-arğın-üzgün
bədən hücrələrindən
üzülən zuzələr! Yox, istəmir Onlar daha,
Dünayadan axan səsləri!!!
Onların sümük xatirəsində,
indi yalnız
diri-diri
torpağa əndərilmiş Böyük Hürkü,
şaşqın qışqırıqlarının yaddaşı yaşayır!
Bir də ki... " Lənət sənə Faşizm!"-
"Lənət sənə...
lənət sənə!.." - hayqırıqları yaşayır!..

***

Hə, Rüzgar! İndi Onlar dərin uğultularda
Simvolik Marsilyoza vıyıltısı oxuyur...
Sivil dünya bir şey anlasın deyə!
Xor oxuyurlar Onlar
Vəhşətə!!!
Dünya bir şey eşidə bilsin deyə!

***

Hə,Rüzgar! Eşidə bilirsənmi,
Səslərin ən mükəmməli
Əsrin Simfoniyasını? - Ölülər himnini!-
Onlar yerin mantiya qatından
Məkrin Oyun işinin
məcmusunu-
məşum nəğmələrinin
Odasını oxuyur...

***

Hə, Rüzgar! Al Onların güclü faciəsini
qarışdır fırtınalı hirsinə, Səsləri....
Apar ötür onlara da -
O tay, bu tay Okeanı zəbt edib oturmuş,
Zorunlara! Atları Əflatun Fironlara da!

***

Bəli, cahan!
O torpağın adı Məlul Xocalı!
Çəpəri qalın çəkilib...
Hə Ruzgar, hərdən soruşuram Ondan
xəyalən:
"-Xocam!.. Məğlubum!.. Necəsən?
Yoxsa dağ çəkdi sinənə tarixi dilənçi -
Bəd Qonşu?-
Drammatik "Yazıq Erməni" ilə
Məşhur Qırmızı Qospodin?" -
O! Qospodi! Nə nazik əndişədə olmuşdur
Köhnə Sovet humanisti?-
Moto-atıcı daşıyan
kütləvi qırğın maşını?-
"Möhtəşəm" bir Alay!!!

***

Ah, mənhus düşüncə!
Necə yəni, Allah yaradanı sın,
Bir gecədə yox edəsən?!
Əhsən ,ey İnsan,əhsən,
Sən bu antik işinlə
Xirosima dəhşəti, Xatın faciəsini də
Çox-çox arxada qoydun!

***

Bəs əsiri-yesirlər?Bir deyil, on deyil,
Min-mindir,yüz mindir əsirlər!
Sarsılan, əzilən həyatlar -
yüz min,yüz min,
yüz min,yüz min...yüz mindir!

***

Ah,fırlanır bəbəklər çuxurunda,
Çuxurundan indicə çıxacaqdır,bəbəklər!
Çün, yaşamaq-ehtiyacdır!
Yaşamaq - su istəmək, çörək dadmaq,
Sevməkdir, sevilməkdir - yaşamaq!

***

O! Məryəm Anaaa! Müqəddəs!...
Mən səni çox sevirəm...
Bəlkə Sən cavab verəsən,
Nədir bu? Nə demək " Xof və İnsan?"-
Hardan axır axı kilsə zəngləri?
Zor edir, zorunluqla soxulur
müsəlman obasına.

Mən bu Qlobal Ahın şəklini çəkərəm!
Çəkə bilərəm Onu-
Bəşəriyyət önündəki
Zülmün Nəhəng Pannosunu!
Çün, indicə Dünya üçün
himn oxuyub qalxacaq,
O məğrur, əsrarəngiz, Yek Ana-
Mübarizə Simvolu Vətən qızı! O Fosfor!..
Zühr etmiş bir güclü biçarə...
Of allah, uçan dodaqlarıyla
"İnsan"-ı hayqıracaq,
o məsum tifilləri,
Yer üzünün bütün həlaklarını,
Zilləti hayqıracaq!

***

Hayqıracaq!
Tələb edəcək Gözləri...
Tələb edincə, eyvah,
Boğazının bütün telləri ilə
rüsvay edəcək təzədən o Kölgə
Cahanın Canavar İştahlı

İnsan olan bəşər də!...
Axı qalın yorğan çəkir,
Nəhəng faciə üstünə
Üst Qatlar!

***

Ax, nədən bu?..
Cızdağı çıxır Onun,
qəsbkar cəng-vüng-cəngləri
eşitmək istəmir!..
Adamlarsız pəncərələr,
evciklər, küçələr
yetim baxan yuvalar başından ələnən
O zorun səs selini istəmir!
Boşuna
humanizm yelləyən
sədanı istəmir!
Külə dönən Obasından,
Məskənindən közərən
Yad kölgələr - yalan titrəmələrə
Sümük qəfəsində O,
Qətrə qədər hörmət də bəsləmir!!!
Və təcəlla edib ki, o Fosfor...

Sizlərdə beləmi zorakıdır Kəlisa?-
Allahın müqəddəs evləri?..
Yəqin elə onunçun da özünüz öz əlinizlə
Mıxladınız çaharı-mıx gözəlim İsanı!
O! Mariya! Gözəl Ana! Belə isə,
Faydasızdır sizlərdən etina gözləmək,
Ah,hava...sevən...müqəddəs!..

***

Ah! Boğulur,cocuqlar,
Yorulur torpağın altında
Cocuqlar!
Əlləri,qolları yorulur...
Heç bir şey anlamır,Cocuqlar!
Cocuqlar top-top oynamaq istəyir,
torpağın altında.
Cocuqlar bir təhər ovunar
Havasız...nəşəsiz...
Torpağın altında...
O! Məryəm!....
Ancaq ki, ana məməsi istəyir
körpələr torpağın altında!
Heç bir şey anlamır inqalar!..
İnqalar ana döşü əvəzinə
İndicə torpağı əməcəklər!..

***

Ah!..
Səslərə ürpəşirəm,
Şum edilmiş inslanların Kütləvi Qırğınına
daraq çəkə bilmirəm....
Bax, ona ağlayıram,
Məryəm Anaa!..
Axı Dünya özbaşında!
Axı Dünya çox məşğul!
Amma...hava istəyirmiş ....uşaqlar,
Məryəm Anaa!...
Allahın mələk qızı...

***

Ah, Rüzgar! Dostum ol!... Bura bax...
Sən torpağı süpürüb ötəndə,
şayəd görə bilirsənmi hərdənbir
belibükük əkinçi-biçinçi kölgələri...
Öpə bilirsənmi sən arada,
boşuna yellənən sünbüllü zəmiləri?
Bəs
O Nəhəng Ananı-Ən Nəhəng Qüssəni
Gördünmü?
Görmədiiiiin?..
O sənə heç bir şey demədiii?
Demədimi,
Bütün Oyaq Kölgələr - hamısı ah?!..
Yox! Dedi! Mən eşidirəm Onu!
Eşidə bilirəm
Onların hamısını!
Bir-birinin ətəyini dartışdıran
Heç bir şey anlamadan
burnunu qurdalayıb
zırıldayan uşaqların
Ölüm Şərqilərini
Mən eşidə bilirəm!

***

Və varındısa... sən allah, ey Rüzgar,
fırça gətir!

Cümlə Adamyeyən Kolunun...
Cümlə Yırtıcılarını!

***

Kilsə zəngləri çalxanır
beynində yenə də...
Nədən bu? Güc edir busəs ona.
Gic edir...
İlahi! Sən Onu sakit et!
Gözlərində alov var,
Alov alışır Onun, bu ilahi Fosforun...
Bütün sümüklərində; Xocalı yanırmış,
Xocalı alovda... Of, allah, allah, allah,
Xəritənin göbəyi - Qədim Mesopotamiya
-
Bağdad da yanırmış!..
Onun göz çuxurlarında...
Bir yandan da çəkic döyür beynində,
Ona yad ahənglər
Ağır qalay kimi basır,
Cənghacəng-canqacunq səslər...
Yorur Onu yeknəsəq yad ahəng!
O bunu istəmir!
Səsləri səslərə qarışdırmaq istəmir!
Onun qulaqlarında
yerlə yeksan olub qalmış
uşaqlarının səsi, yiyəsiz avazlar,
toz kimi, qum kimi ələnən
azan səsləri yaşayır!
Özü demiş,bu Kəllə Kəlisanın
ona yad notlarını
eşitmək istəmir! Yox, eşitmək istəmir!
Bütün Allah Evləri -
Allah məbədlərindən
yüksələn səsləri
o daha eşitmək istəmir!!!

***

Beynində iğtişaş var!
O yenə də yüyürüb, yüyürüb...
Yüyürəcəkdir müdam...
O nə isə edəcəkmiş...
Kimi isə edam da edəcəkmiş...
Ay allah!
Fəqət gücü çatmayır!
O heçdir, puçdur artıq,
ay allah!..
O artıq bihudə varlıqdır...

***

İlahi! Kömək ol! O təkdir!.. Anadır...
Tək qalıb... torpağın üstündə...
Biçarədir...
O elə köməksiz, elə müti ki!..
O Ruhdur!.. Güc gəlib torpağa...
Lağımlar, yarğanlar incidib...
Necə də sinirli, sehirli gəlibmiş...
Gəlmiş ki,
Laylasını üst qatda oxusun!..
Gəlmiş ki,
Eşitsin Onu Dünya üst qatda!..
Onunla bərabər hönkürsün
bu məşum nağıla

batqın arzularını yonub töksün
Torpağa,
Və elə Torpaq üçün
bütün həyəcanı ilə
həzin... layla...
dua tərənnümləri oxusun...
Və son nəqarat, son epiloq kimi O,
elə hey hayqırsın: Cavabdehsiz!
Cavabdehsiz, Cavabdehsiz,
Cavabdehsiz, belində hərb gəzdirən
Cahanşümul Şümürlər!
Müntəzirsiz cavaba, Cahan Goreşənləri!
Dünyanı bazar bilən
Müsrəsna "Alış-veriş Əmiləri!"...

***

Ah, göyərçin balaları neylədiz?
Neylədiz, Nəfəsləri? Əmilər!..
Hanı Səslərrr?!!...
Amma sərçə deyildi Onlar,
Əmilər!

***

Heç girirmi yuxunuza
sönən işıqlar, həyatlar,
lal baxan ləpirlər...
Üşüdürmü Sizləri hərdənbir
xərək-xərək Ölülər?
Təbəssümü qəfil kirimiş olan
Uşaqların məzlum pıçıltıları?
Əmilər!!!..

***

Ah, yetim baxır nəbatat...
O küknar hələ də ağlayır...
Yonur tökür saşlarını yoncalar,
o balaca qız üçün.
Çöl boyu qaçışan
"can gülüm can" oynayan uşaqlarçün
Darıxır yoncalar... ağaclar!
Bu ayrılıq felinə Sizsiniz günahkar,
Bəşəri Zalımlar!

***

Əl çəkin! Qırın hərbin belini!
Dağıdın təbilini siz onun!
Doğrayın müharibə sözünü,
Siliniz lüğətlərdən!
İnsanı düşünün! Ürəksiz Məliklər!
Dünya Kələkbazları!
Dü-şü-nünn!!!..
Dünya yalnız sizin deyil!
Düşünün!!!!!!
Düşünməyə çox dəyər!....

***

Ah, yetim baxır o Bağçabağ...
O qızın qıvırcıq tellərindəki
yaş danəciklərini...
parıltını...
danələri... axtarır... Bağçabağ!..
Ah, nə yazıq!...

***

İlahi! Sən onları rahat et...



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# ... Və Əli Səfəroğlu

... Onlar bizdən nə az, nə çox 7-8 yaş böyük idilər. Kim idi onlar?! Bizim tələbə dostlarımız Əli Səfəroğluydu, Beydullaydı, Rəhmanıydı, Əhmədiydi, Nizaməddiniydi, Teyfuruydu... Və bunlar bizim ağsaqqallarımız sayılırdı. Ən azından ona görə ki, həyat təcrübələrinə görə, bizdən daha çox görüb götürmüşdülər, bərkə-boşa düşmüşdülər, həyatın hər üzünü görmüşdülər. Yəni onlar bilirdilər ki, eniş nədi, yoxuş nədi, həyatın çovğunu, tufanı nə deməkdi? Və bu çovğundan, bu tufandan insan necə xilas ola bilər? Hansı yolu getsə büdrəməz, işığa çıxar və arzularına qovuşar...

Biz Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində oxuyanda iki qrupumuz vardı: bir qrupun nümayəndəsi indiki xalq yazıçısı Afaq Məsud, bizim qrup nümayəndəsi isə İradə xanım idi. O İradə xanım ki, atası Qasım müəllim universitetin professoru olsa da, heç vaxt özünü çəkməz, çox sadə və səmimi aparardı. Və hətta çətinə düşən, imtahandan qorxan bəzi tələbə dostlarının atası Qasım müəllimə tapşırardı. Qasım müəllimin çöhrəsindən həmişə nur yağardı. Yəni o, İradə xanımın atası olmaqla yanaşı, elə bizim hamımız üçün çox doğmaydı, çox əziz idi.

Tələbə yoldaşlarım bir-bir gözümün önünə gəlir. Düz 41 il bundan əvvəl ADU-nun jurnalistika fakültəsini bitirmişik. Və bu 41 ildə tələbə dostlarımızın arasında "Xalq yazıçısı" adı alan da var, "Əməkdar jurnalist" və "Əməkdar mədəniyyət işçisi" fəxri adı alanlar da. Mən heç də bu yüksək fəxri ad alanlar haqqında söhbət açmaq istəmirəm. Hərçənd ki, onların hər biri barəsində nə qədər desən danışmaq olar. Amma mənim söhbət açacağım mövzu tamamilə başqadı...

Bu yaxınlarda dünyasını dəyişmiş istedadlı jurnalist, politoloq, tələbə dostum Bəhruzər Rüstəmov barəsində bir yazı qələmə almışdım. Qrupumuzun ağsaqqallarından olan "Azərbaycan" qəzetinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Rəhman Salmanlı dedi ki, çox xoşuma gəldi. Hər şey olduğu kimi və səmimidir.

Mən də dedim ki, növbəti nömrədə haqqın dərgahına qovuşmuş dostumuz və qardaşımız, şair-publisist Əli Səfəroğlu barəsində gücüm çatsa, bir şey qələmə alacağam. Rəhman müəllim də dedi ki, çox savab iş görərsən və onun ruhunu sevindirərsən...

Əli Səfəroğlu bizdən yaşca böyük olsa da, amma bizə çox doğma və yaxın idi. Heç kimə demədiyi, danışmadığı sözlərini bizimlə bölüşərdi. Və səhv eləmirəmsə, Təzə bazarın yanındakı evlərdən birində kirayənişin qalırdı. Bir gün məni bazarın yanında gördü, götürüb apardı ora. Dedi Ucardan təzə qayıtmışam. Bilirəm, yeyib-içən deyilsən, rayondan yaxşı toyuq soyutması, çaxır, motal pendir və nar gətirmişəm. Nar da elə-belə nar deyil ey, gülöyşə narıdı. Adam yeyəndə doymaq bilmir. Sözün düzü, o biri təamlar məni bir o qədər özünə çəkməsə də, amma bu gülöyşə nar yaman özünə çəkdi. Mən bu yazını kompüterə diqtə edərkən dostumuz və qardaşımız, istedadlı dizayner Şamxal Şəbiyev dedi, müəllim gülöyşə demə ey, can dərmanı de, cənnət de, qlükoza de, yeyən kimi bir başa damara gedir...

... Getdik onların evinə, süfrəni açdı, o təamların hamısını düzdü süfrəyə. Narları da iki yerə böldü. Pah attonan, bu necə nariydi Allah?! Dənələri xalaoğlu Tərxanın sözü olmasın, fındıq boyda. Soyutma toyuğu əlinə götürüb iki yerə böldü. Dedi ki, indi çək dişinə, gör Ucarın necə dadlı toyuğu var. Özünə qalın stəkanda çaxır süzdü.

Dedi ki, bəlkə sən də bir stəkan vurasan? Dedim yox, bir dəfə Rəhman saqqızımı oğurlayıb, indi də sən saqqızımı oğurlamaq istəyirsən, keçməz! Qəşəng sağlıq dedi, toyuğun döş ətini dişinə çəkdi və qalın stəkandakı çaxırı vurdu. Mən də başaldım toyuğu yeyəndən sonra gülöyşə narına girişməyə. Nə az, nə çox, 4-5 nar yedim. Dedi, darıxma ey, gedəndə də 5-6-nı verəcəm apararsan.

Bir-birindən gözəl, sevgi şeirləri, məhəbbət şeirləri səsləndirdi. Nə başınızı ağrıdım, həmin gün bizim ömrümüzün ən gözəl anlarından biri oldu. Hələ indiyə kimi mən onun gətirdiyi nar qədər dadlı nar yeməmişdim.

Əli Səfəroğlu çox duzlu, çox yumorlu, çox şirin və çox da qılıqlı adam idi. Elə bir şirin dili var idi ki, istənilən adamı ələ almağı bacarırdı. Hətta bizim çətin və imtahanlardan qorxduğumuz müəllimlərin belə qəlbini ələ ala bilirdi. Bir müəllimimiz vardı, adını çəkmirəm, çox əzazil idi. Kim onun paltosunu, şubasını birinci tutsaydı, tay imtahandan qorxusu yoxuydu.

Əli Səfəroğlu da mühazirə bitəndən sonra o xanımın şubasını götürüb geyinməyinə kömək elədi. Müəllimə diqqətlə ona baxıb bazburutundan, görünüşündən çox xoşu gəldi. Üstəlik də Əli bir şeir dedi, ona ləzzət elədi. Güldü və dedi ki, sənin beşin hazırdı. Çünki o şeirdə Azərbaycan dilinin bütün gözəlliklərini, koloritini, şirinliyini və incəliyini təsvir eləmisən.

Onun şeirlərini bu gün çox tanınmış və məşhur aşıqlar belə ifa eləyirlər. Onlardan biri aşıq Əhlimandı. O aşıq Əhliman ki, çox vaxt Əli Səfəroğlunun sözlərinə bəstələnmiş mahnıları ifa edir. Səhv eləmirəmsə, onun bir çox şeirinə musiqini aşıq Əhliman bəstələyib. Əli həm gözəl şeirlər yazırdı, həm də bəhri-təvillər qələmə alırdı. Özü də o qədər şirin, o qədər gözəl şeirlər səsləndirirdi ki, adama ləzzət eləyirdi. Qrupumuzda bir oğlan vardı, sevdiyi qızın "hə"sini ala bilmirdi. Əli bir şeir yazdı və dedi ki, get o qıza oxu, o qız sənə "yox" deməyəcək. Demə ey, şeiri Əli yazıb, de ki, şeiri özüm yazmışam. Dostumuz da o şeiri qıza oxumuşdu, qızın da ürəyi yumuşalmışdı, ona "hə" demişdi. Dərsə gələndə gördük ki, oğlanın üzü gülür və Əlini axtarır. Əlini tapdı, üzündən öpdü və dedi ki, çox sağ ola, şeirin onluğa dəydi, qız razılaşdı...

Dostlarımızın ad günü, hər hansı mərasim olanda tamada Əli Səfəroğlu olardı. Onsuz da biz hamımız azçox istedadlı idik. Amma o danışanda, şeir deyəndə, söhbət açanda hamımız susardıq və ona qulaq asardıq. Əli şeir demirdi ey, Əli danışmırdı ey, söhbət açmırdı ey, sanki bir gün işığıydı və o gün işığı bizim hamımızın ürəyini, qəlbini isidirdi. Əlinin o qədər yumorları, lətifələri var ki, danışanda uğunub gedərdik. Bir şeiri vardı "Fındıley". Bir az yumor vardı, bir az ironiya, bir az da sarkazm.

Elə bil onun üzündə bir şeytan tükü vardı və bu şeytandan çox mələyə oxşuyurdu. Və o, gülən kimi, bir söz deyən kimi hamımız pıqqıldıyardıq. Qəşş edib özümüzdən gedərdik və deyərdik ki, ay Əli, Allah sənin köməyin olsun, bizi az güldür. Əli də deyərdi ki, mən sizə nə deyirəm, eləpık eləyən kimi uğunub özünüzdən gedirsiniz.

Müəllimlərin əksəriyyəti yaşlı və istedadlı olduğuna görə, ona hörmətlə yanaşardılar. Şirməmməd Hüseynov, Famil Mehdi, Nurəddin Babayev, Nəriman Zeynalov, Akif Rüstəmov, Cahangir Məmmədov Əliyə istedadına görə çox hörmət bəsləyirdilər. Üstəlik də, səmimiyyəti, isti münasibəti və insanlarla olan qılığı onu hamıya sevdirirdi.

Biz 4-cü kursu bitirib 5-ciyə keçəndə üç aylıq Nasosnu qəsəbəsinə hərbi təlimə getdik. Ona "zbor" deyirdilər. Çünki universitetdə oxuyanda hərbi dərslər keçirdik və üç ay təlimdə olandan sonra imtahan verib zabit rütbəsi alırdıq. Biz getdik Nasosnundakı hərbi kazarmaya. Komandir isə Əli Səfəroğlu təyin olundu.

Heç 2-3 gün xidmət eləməmişdik ki, uşaqlar taxtabitinin əlindən boğaza yığıldılar. Kibrit qutusuna yığıb o taxtabitini Əli Səfəroğluna verdilər, o da aparıb polkovnikə göstərdi. Polkovnik bundan bərk əsəbləşdilər. Dedilər ki, Sovet əsgərinin olduğu yerdə heç vaxt taxtabiti ağlabatan deyil, siz böhtan atırsınız. Amma bizim uşaqların hamısı hərbi hissənin komandirini yanına getdilər və Əli Səfəroğluna arxa durdular. Hərbi hissəyə gedənlər Elşad, Loğman, Nizaməddin, Ağalar, Mübariz, İbrahim idi. Bizim hamımızın etirazından sonra ondan əl çəkdilər.

"Zbor"da olanda bizə rəhbərlik eləyən mayor Maneviç idi. Insafən çox obyektiv və ədalətli adam idi. Amma bizi həddindən artıq incitdiyinə görə, bir dəfə uşaqlar söz qoydu ki, təlimdə o nə əmr versə, yerinə yetirməyək. Biz də getdik təlimə, Maneviç hamını sıraya düzdü, əmr verdi və heç kim tərpənmədi. Qışqırdı, bağırdı, yenə heç kim tərpənmədi. Hətta Əli Səfəroğlunu hədələdi ki, sən necə komandirsən ki, bunları tərpədə bilmirsən. Hər yerdən əlacı kəsilən Maneviç dedi ki, xidmət etdiyim müddətdə heç bir vzvot, heç bir qrup mənə belə hörmətsizlik eləməyib. O yerə çökdü, başını tutdu və ağladı. Bizim ona yazığımız gəldi və yenidən ayağa qalxıb onu sevindirdik. Sanki Maneviçin gözünə nur gəldi və bildi ki, jurnalistika fakültəsinin tələbələrini haqsız yerə incitmək belə nəticə də verə bilər. Bu ona dərs oldu!..

Əli Səfəroğlunu yaxın dostları vardı: Elşad, Loğman, Vaqif, Ağalar. Vaqif də, Ağalar da Allah rəhmətinə gedib. Onlar hər gün yeyib-içər, ürəkləri istədikləri kimi hərəkət edər və komandirləri də razı salardılar ki, bizi incitməsinlər.

Elə onların köməkliyi ilə bizim hər iki qrupdan bütün təlimə getmiş tələbələr qiymət aldı və zabit rütbəsi qazandı. Əgər o imtahandan kəsilsəydik, təbii ki, bizi iki il hərbi xidmətə aparacaqdılar.

... O illəri, o günləri, o anları xatırlayanda bir daha beş il bir yerdə oxuduğumuz tələbə dostlarım gəlib bir-bir gözümün önündən keçir. Gözümün önündən keçənlərdən biri də şair-publisist Əli Səfəroğludur. Rəhmətlik ona görə demirəm ki, yaradıcı adamlar - şairlər, yazıçılar heç vaxt ölmürlər. Əgər onun sözlərinə bəstələnmiş mahnıları aşıq Əhliman kimi böyük sənətkar ifa edirsə, deməli, vallah, Əli Səfəroğlu sağdır.

... Və hər dəfə onun mahnılarını eşidəndə Əlinin şeirləri, lətifələri, yumorları, zarafatları yadıma düşür. Çünki Əli Səfəroğlu istedadlı şair olmaqla yanaşı, həm də başdan-ayağa duz idi, bal idi, yumor idi. O yumorlar, o lətifələr yadıma düşəndə istəristəməz çöhrəmə sevinc qonur, dodağım qaçır.

Tək mənim yox ha, 1979-cu ildə universitetin jurnalistika fakültəsini bitirmiş bütün tələbələrin, dostların çöhrəsində bu sevinc yaranır və Əli Səfəroğlu yenidən xatırlanır, yenidən yaşanır və yenidən yada düşür.Yenidən xatırlananlar, yenidən yada düşənlər həmişə yaşayırlar...

# Xocalı uğruna qurban gedən 6 Milli Qəhrəman: müəllim, polis, hərbçi, traktorçu, fəhlə...

***Bilmirəm, məqaləyə hansı sözlə başlayım? Qana bələnmiş qar deyimmi, qanına bələnmiş çarəsiz insanlarmı deyim, qan yaddaşımızmı deyim , nə deyim, hansı ifadəni işlədim ki, faciənin miqyasını, ağırlığını, acısını ortaya qoyum. Məndən əvvəldə həmkarlarım bu mövzuda kifayət qədər məqalə və bədii əsərlər yazıb. Çoxunu oxumuşam. Amma Xocalını bir cümləyə sığdıra biləcək ifadəni tapmaq heç kimə müyəssər olmayıb. Nəsə mən də yeni bir şoz, bir fikir kəşf edə bilmədim... O zaman keçək xatırlatmaya.***

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirib. O müddətdə erməni ordusuna və 366 -cı motoatıcı alaya, üstəgəl rayonu mühasirəyə almış dövrün ənmüasir hərbi texnikasına qarşı adi avtomatla döyüşən igidlərin hesabına əhali tamamilə qırılmaqda qurtuldu. Bu gün Azərbaycanın Milli Qəhrəmanı adi ilə təltif olunmuş (ölümündən sonra) o igidlərin bir bir qismini ehtiramla xatırlamaq yerinə düşər.***



## *Müəllimlikdən qəhrəmanlığa*

Ələsgər Xanlar oğlu Novruzov 1 avqust 1949-cu ildə Laçın rayonunun Kürdhacı kəndində doğulub. 1966-cı ildə Kürdhacı kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. 1968-70-ci illərdə Ermənistanın Leninakan şəhərində hərbi xidmətdə olub. Şuşa Pedaqoji Texnikumunu 1973-cü ildə bitirərək, öz kəndlərindəki məktəbdə bədən tərbiyəsi müəllimi kimi fəaliyyətə başlayır. 1979-cu ildə isə Xocalı şəhərinə köçür və 1 saylı məktəbdəişini davam etdirir.

1988-ci il hadisələri başlayanda gizli şəkildə yaradılmış Xocalının Müdafiə Şurasının ilk beş üzvündən biri də Ələsgər müəllim elan edilməmiş müharibə qızışdıqca, ermənilər azğınlaşdıqca onlara qarşı keçirilən əks-əməliyyatlarda həmişə fərqlənmiş, demək olar ki, ən cəsur döyüşçülərdən biri olmuşdur. O, 30-40 nəfərlik silahlı dəstəyə başçılıq edirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə... Ələsgər həmişəki kimi yenə də öz döyüşçüləri ilə postda idi.

Ermənilər onun rəhbərlik etdiyi dəstənin tutduğu mövqeyə nə qədər mərmi yağdırsa da, onlar postu təslim etmədilər.

Düşmən cəsur döyüşçünü böyük çətinliklə əsir götürür, o, Xankəndində min bir işgəncə ilə qətlə yetirilir. Doğma kəndi Kürdhacıda dəfn edilir Ölümündən sonra Məhəmməd Əsədov adına mükafata layiq görülür..

Ailəli idi. Üç övladı həyatda yadigar qalıb.

## *Qarabağın cəngavəri*

***Əlif Lətif oğlu Hacıyev 1953-cü il iyunun 24-də Xocalı şəhərində dünyaya gəlib.1970-ci ildə orta məktəbi bitirərək, Xankəndi şəhərində sürücülük peşəsinə yiyələnib. 1971-ci ildə ordu sıralarına çağırılıb. 1973-cü ildə Minsk şəhərində hərbi xidmətini başa vurduqdan sonra, Xankəndi Avtonəqliyyat Müəssisəsində sürücü işləyib. 1976-cı ildə keçmiş SSRİ DİN-nin Frunze adına Xüsusi Orta Milis Məktəbinə daxil olub və 1979-cu ildə həmin məktəbi bitirib. 1981-ci ildən təhsilini SSRİ DİN-nin Akademiyasında davam etdirib. O gənclik illərindən başlayaraq erməni şovinizmini anlayır və mübarizəyə başlayır. Ermənilər onu zərərsizləşdirmək üçün üstünə şər atıb tutdururlar. Amma 1987-ci ildə Əlifin məhkəmə işinə yenidən baxılaraq 10 il həbs cəzası 6 ilə endirilir. Bir az sonra isə o, tam bəraət alaraq azadlığa buraxılır.***

Əlif Dağlıq Qarabağ üzrə Təşkilat Komitəsində, Qarabağa Xalq Yardımı Komitəsində fəaliyyət göstərərək erməni millətçilərinə qarşı mübarizəsini davam etdirir. O, dekabr ayında daxili işlər orqanlarına qəbul olunaraq Xocalı Təyyarə Limanı Xətt Daxili İşlər Bölməsinə rəis təyin edildi. Əlif, eyni zamanda, Xocalı Aeroportunun komendantı idi.

Əlif Hacıyev düşmənin nə qədər güclü olmasına baxmayaraq təslim olmur, onlarla cəngavər kimi vuruşur, dinc əhalinin təhlükəsiz yerə çıxarmaqdan ötrü misilsiz qəhrəmanlıq göstərirdi.

Faciə günü xain düşmən gülləsi Qarabağ cəngavərinin vətən sevgisi ilə döyünən ürəyini də susdurdu, o, şəhidlik mərtəbəsinə yüksəldi. Ölümündən bir neçə gün sonra Əlifin tabutunu Bakıya gətirib Şəhidlər Xiyabanında dəfn etdilər.

## *Xocalının "Mixaylo" su*

Tofiq Mirsiyab oğlu Hüseynov 19 aprel 1954-cü ildə Xocalı şəhərində doğulub.

1961-ci ildə burada birinci sinfə gedib və 1971-ci ildə onuncu sinfi bitirib. Ağdam şəhərindəki Kənd Təsərrüfatı Texnikumunun mexanizasiya fakültəsini bitirdikdən sonra, 1974-cü ildə Sovet Ordusu sıralarına çağırılıb.

1976-cı ildə hərbi xidmətini Qazaxıstan Respublikasının Alma-Ata şəhərində başa vurub. Sonra, Xocalı şəhər orta məktəbində hərbi hazırlıq müəllimi kimi əmək fəaliyyətinə başlayır. Məktəbdə işlədiyi müddətdə kapitan rütbəsinəcən yüksəlib. 1991-ci ildə Xocalı ərazi özünümüdafiə batalyonunun təşkilatçılarından biri kimi o, taborun komandiri təyin edilir. Meşəli kəndi uğrunda gedən döyüşdə onun taboru onlarla erməni yaraqlısını məhv etməyə müvəffəq olub. O, rayonda "Mixaylo" ləqəbi ilə tanınırdı. Ermənilər Naragux kəndindən tez-tez Xocalını top atəşinə tuturdu. O, düşmənin bu strateji top-batareya nöqtəsini susdurdu.

***Onun dönməz səyi nəticəsində Mehdikənd kəndinin fermasında yerləşən erməni quldurlarının artilleriyası, "Alazan" qurğusu sıradan çıxarıldı, ferma darmadağın edildi. Bununla yanaşı, on nəfər erməni yaraqlısı əsir götürüldü. Bu əməliyyata görə Tofiq Hüseynova mayor rütbəsi verildi. O, canlı qüvvə və texnika cəhətdən qatqat üstün olan düşmənlə qeyri-bərabər döyüşdə axırıncı gülləsinə qədər vuruşaraq, əsir düşməmək üçün qumbaranı sinəsinə sıxdı və özü ilə bərabər ona yaxın erməni yaraqlısını da məhv etdi. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edildi. Ailəli idi. Üç övladı var.***

## *Cəsur pulemyotçu*

***Səlimov Araz Bahadur oğlu 1 iyun 1960-cı ildə Xocalı şəhərində doğulub. 1975-ci ildə burada orta məktəbin səkkizinci sinifini bitirib. Sonra texniki-peşə məktəbində traktorçu peşəsinə yiyələnib.1978-ci ildə Sovet Ordusu sıralarında-Çelyabinsk vilayətində hərbi xidmət edir. 1980-ci ildə ordudan tərxis olunduqdan sonra Xocalıya qayıdır və burada südçülük -tərəvəzçilik savxozunda traktorçu işləyir.***

1990-cı ildə könüllü olaraq Xocalı özünümüdafiə batalyonuna yazılır. Araz ilk gündən öz cəsarəti ilə fərqlənir, bir pulemyotçu kimi erməni təxribatlarına layiqincə cavab verirdi. Erməni yaraqlıları izinə düşərək onu, qardaşı Fəxrəddinlə birlikdə Əsgəranda vəhşicəsinə qətlə yetirirlər. Xocalı faciəsi zamanı bu ailədən üç nəfər -ata və iki oğul şəhid olub. Ağdam şəhərində Şəhidlər Xiyabanında dəfn ediliblər. Evliydi. Bir oğlu, iki qızı var.

## *Rus polkovniki əsir alan igid*

**Aqil Sahib oğlu Quliyev 1963-cü ilin sentyabrın 19-da Ermənistanın Sisyan rayonunun Urud kəndində anadan olub. 1980-ci ildə orta məktəbi bitirib. Azərbaycan Neft Akademiyasının axşam şöbəsinə daxil olub. Üçüncü kursdan hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vurduqdan sonra 1985-ci ildə Xarkov Ali Milis məktəbinə daxil olub. Məktəbi fərqlənmə ilə bitirdikdən sonra 1988-ci ildə Milli Ordu qərargahına gələrək hərbi xidmətə yazılıb.**

O, həmin il Qarabağ müharibəsi başlanmasını Xarkovda eşitdikdən sonra, körpə qızını götürüb Bakıya qayıtdı. 1992-ci il fevralın əvvəllərində Aqil Quliyevin rəhbərliyi ilə 366-cı motoatıcı alayın altı BMP-si heyət üzvləri ilə birlikdə girov götürülür. Heyətin sırasında bir rus polkovniki də olur. Fevralın 18-də o, qız-gəlinləri Xocalıdan çıxarmaq üçün 11 nəfər döyüşçüsünü götürüb, mühasirəni yarmaq üçün erməni postuna yaxınlaşır. Postda erməni quldurlarına göz açmağa imkan verməyib 21 nəfərini öldürürlər. Döyüş yoldaşı İlqar Musayevə güllə dəyir və Aqil onu təhlükəsiz yerə aparmaq istəyərkən, güllə onun qıçlarına da dəyir. Onun təcili cərrahiyyə əməliyyatına ehtiyac vardı. 1992-ci il fevralın 25-də, döyüş yoldaşları Quliyevi xərəyə qoyub Xocalı soyqırımından xilas etmək üçün çalışırdılar. Növbə ilə onu Kətik kəndinin yanına qədər gətirib çıxardılar. Lakin ermənilərin pusqusuna düşdülər. A.Quliyev də, onu aparanların hamısı həlak oldu. İgid komandirin meyitini beş gün sonra martın 2-də hadisə yerindən götürmək mümkün oldu. 1992-ci ildə Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

## *"Qızıl ulduz"lu döyüşçü*

***Füzuli Salah oğluRüstəmov 25 dekabr 1965-ci ildə Tərtər rayonunun Hüsənli kəndində anadan olub. Ata-anasını erkən itirb. 1978-ci ildən Xocalıda babası Kərimin və nənəsi Tamaşanın himayəsində yaşayıb, burada da səkkizillik məktəbi bitirib. 1983-cü ildə Sovet ordusu sıralarına hərbi xidmətə çağırıldı. Füzuli hərbi xidməti tamamladıqdan sonra Xocalıya qayıdır. O, əvvəlcə Xocalı Üzümçülük Sovxozunda, 1990-cı ildən isə toxuculuq fabrikində işləyir. Münaqişə başlayanda Füzuli camaatını müdafiəyə çalışır.***

1989-cu ilin iyun ayında kəndlərinə yaxın olan erməni postuna hücum edərək oranı dağıdır. Bunun üçün ona 4 ay həbs cəzası verirlər. 1990-cı ildə erməni yaraqlılarının Xankəndinə girişinin qarşısını almaq üçün Xocalı aeroportunu partlatmaq üçün 4 nəfərdən ibarət qrup yaradıldı. Qrupun tərkibində Füzuli də var idi. Əməliyyat uğurla başa çatdırılır.

Füzuli Rüstəmov Xocalı özünümüdafiə dəstəsi yaradılanda əvvəlcə həmin dəstədə, sonra isə hərbi batalyonda xidmətini davam etdirir. Faciə zamanı o, üç dəfə Xocalıya girib, qadın, uşaq və yaralıları təhlükəsiz yerə çıxarır. Ölümün pəncəsindən neçə-neçə insanı xilas edən Füzuli Rüstəmov özü düşmən gülləsinə tuş gəlir.

"Qızıl ulduz" medalını bacısı Füqurə Rüstəmovaya təqdim edilib.

O, Tərtər rayonunun Həsənli kəndində dəfn edilib.

**Son olaraq: Zənnimcə, "Xocalıya ədalət!" çağrışı o vaxt həqiqi çağrış olacaq ki, Xocalı tamamilə Azərbaycan Ordusunun nəzarətinə keçəcək, köçkün sahibləri yenə öz yurdlarına dönəcək, 29 ildir sinəsi vətən həsrəti ilə yara bağlayan dirilərin qəlbi, Xocalı yolunda qurban getmişlərin narahat ruhları şad olacaq. Bəli o vaxt "Xocalıya ədalət!" deyə dünyaya bağırmaq lazımdı. Özümüz erməniyə həddlərini bildirməsək, dünya Xocalı faciəsini, Xocalı soyqırımını görməzdən gələcək! Necə ki, 29 ildir dünya "Xocalıya ədalət!" çağdışını vecinə almır!**

**Ümid sənədir, ancaq, Azərbaycan Əsgəri!**

**Əntiqə Rəşid**

***Onu harda, necə görmüşəm, necə qarşılaşmışıq, bütün detallarıyla yadımda qalmıyıb. Amma dəqiq bildiyim elə məqam var ki, onu ömrümün sonuna qədər unuda bilmərəm. Bu məqam ailəmlə, dünyadan vaxtsız köç etmiş əzizimlə bağlıdır. Çünki mən həmin insanı uşaqlığımın, gəncliyimin, tələbəliyimin ən əziz sirdaşı kimi qohumluqdan da yuxarıda tutmuşdum. Amma neyləyim ki, fələk daha güclü çıxdı. Və yaxud da Allah onu daha çox sevdiyindən alıb apardı...***

üçün ən ağrılı yer oldu. Uşaqları atalı-analı görəndə ürəyimin başı göynədi. Bu göynərti də yavaş-yavaş duyğulara, sözlərə çevrildi. Xatırladım ki, Tahir Kazımov 1942-ci ildə Cəbrayılın Soltanlı kəndində dünyaya gəlib. Gözünü açanda qardaşı - Azərbaycanın çox önəmli dilçi alimlərindən olan Qəzənfər Kazımovu, bir də bacısı Qərənfili görüb yanında. Qeyd edim ki, Qərənfil xanım da ali təhsil alıb, uşaqların təlim-tərbiyəsi ilə məşğul olubdur.

Üz-üzə oturmuşuq. Gözlərinin dibindəki kədər qarışıq işıribədir ki, ögey bibim bu məktubların çoxunu bizdən gizlədib. Amma onun insafsızlığına baxmayaraq, mən 38 məktubu toplayıb bir-bir onlara cavab yazdım və beləcə, ”Gecikmiş məktublar” adlı əsərim dünyaya gəldi. O məktubların hər biri mənim atamla söhbətimdi. Özü də təkcə öz atamla yox, müharibədə qalmış, itkin düşmüş, şəhid olmuş hər bir atayla söhbətdi bu. Sonra ”Səsin sehri” lirik povestim doğuldu. Bu povest uzun müddət Gənc Tamaşaçılar Teatrının səhnəsini bəzidi. Ona musiqini Cavanşir Quliyev yazmışdı. Rejissoru da xalq artisti Ağakişi Kazımov idi.

**- Tahir müəllim, sizin birbirindən maraqlı, özü də bir növü epopiya xarakterli əsərləriniz var. Bu əsərlərdə daha çox həm mifik, həm də kriminal mühit üstünlük təşkil edir. Hardasa mən sizi həm xəyalpərvər, yəni fantastik dünyaya maraq göstərən müəllif, həm də reallığın ifadəçisi kimi görürəm. Bunu necə izah edərdiniz?**

- Özün də əvvəldə qeyd etdin ki, mən daxili işlər orqanlarında işləmişəm. Demək olar ki, əsərlərimin süjetləri, qəhrəmanları əsasən tanıdığım adamlardı. Bir polis rəisi, bir əməliyyatçı kimi mən qarşılaşdığım cinayətkarların əməllərindən tutmuş xarakterlərinə, hətta onların hobbilərinə qədər öyrənməyə maraq göstərmişəm. Bu həm cinayətin açılmasında mənə və əməkdaşlarımıza kömək olub, həm də bir yazıçı kimi əsərlərimdəki obrazları tamamlayıb, kamilləşdirib. Oxucu üz-üzə qaldığı həmin personajın ilk sözündən onun həqiqətən hansı dünyanın adamı olduğunu artıq qəbul edir. Bu mənada polisdə xidmətim mənə qəhrəmanlarımın dünyasını öyrənməkdə və onları da ədəbiyyata gətirməkdə yardımçım olubdu. Bir məqamı da qeyd edim ki, mənim əsərlərim əsasında telekanallar çoxseriyalı ”Qisas” filmini də çəkiblər. Və bu da tamaşaçılar tərəfindən maraqla qarşılanıbdı.

**- Sizin ”Qisas” romanı xarici dillərə də tərcümə edilib və onun əsasında 32 seriyalı film də çəkilibdi. Yəqin ki, Lider televiziyasında tamaşaçılar o yayımı izləyibdi. Amma mənim üçün daha çox ”Talelərini özləri yazanlar” roman diqqətçəkəndir. Çünki bu romanın müəyyən hissəsiylə tanışam və deyim ki, 6 kitabdan ibarətdir və burada baş verənlər Azərbaycanın hüdudlarından kənara çıxır - həm tarixilik baxımından, həm də təqdim edilən sənədlər baxımından. Söhbət torpaqlarımıza göz dikən, bizə qaçqınlıq taleyini yaşadan və nəhayət, 44 günlük Böyük Vətən Müharibəmizlə qisasımızı aldığımız düşməndən - ermənilərdən gedir.**

- Bu altı kitablıq romanda mən təkcə Azərbaycan tarixçilərinin, Azərbaycan mənbələrinin deyil, eləcə də Türkiyənin, Rusiyanın və eləcə də digər ölkələrin ünlü simalarının ortaya qoyduğu mənbələrə istinad edərək erməni xəyanətini 1915-ci il, 1918-20-ci il, 1988-94-cü il zaman kəsiyini həm bədii, həm də elmi tarixi baxımından oxucuya çatdırmağa çalışmışam. Ona görə də bu əsər daha çox tarixi sənədlərə söykənib və deməli, öz taleyini yazanların aqibətinin də bizim Böyük Zəfərimizlə başa çatması qaçılmaz bir sonluq idi. Mən yazıçı olaraq bu sonluğu hadisələri araşdırdıqca görürdüm. Ona görə də əsərimdəki nikbin not sonda təkcə mənim yox, bütövlükdə xalqımızın inamını ifadə etmiş oldu.

**- Tahir müəllim, sizin yaradıcılığınız zəngin mənbələrə söykənir. Bunu mən iki fakta söykənərək deyirəm. Biri ağrılı-acılı uşaqlığınız, yəni həyat məktəbindən öyrəndikləriniz. Ikincisi isə yorulmadan tarixi mənbələrə doğru getməyiniz və onları əldə etmək prinsipiallığınız. Bax, bunun ikisinin bəhrəsi olan əsərləriniz sonda necə deyərlər, çəkili, oxunaqlı, həm də kifayət qədər maraq doğuran olubdu. Digər tərəfdən siz tarixi səfərlərə gedəndə də dincəlmək əvəzinə faktlara, mənbələrə daha çox maraq göstərmisiniz. Elə ABŞ-da olduğunuz zaman yaşadıqlarınızı, şahidi olduqlarınızı yaddaşınıza köçürərək ”Yeni arliana mələkləri” adlı çox oxunaqlı bir əsər ortaya qoymusunuz. Bu əsərdə də aldığım bilgiyə görə, söhbət insan haqlarından, ədalətdən, bir növü dünyadakı narahatlıqlara etirazdan gedir. Siz yazıçı olaraq dünyanın hər yerində baş verən haqsızlığa, müharibəyə etiraz edirsiniz.**

- Bəlkə də bir az səmimi görünməyəcək, amma həqiqətən mən son dərəcə kövrək adamam. Ona görə ən kiçik bir fraqment, bir hadisə ürəyimdən yan keçmir. Uşaq yıxılanda da ürəyim sızıldayır. Ekranda çıxış edən şəhid analarını dinləyəndə də bağrımın başı göynəyir. Görünür, atasız böyüməyin bir təsiri də budur mənə. Ona görə də hara, hansı ölkəyə getsəm, ağrılı məqamlar və bir də təbii ki, gözəlliklər diqqətimdən yayınmır. Necə deyərlər, qələmlə başbaşa qalıb yaşadıqlarımı bir az da açıq desəm, mənimlə üzüzə oturan özümü yazıram. Atamın məktublarına hər gün yeni cavablar gəlir dünyaya. Ata yurdumuzdan uzaqda, Bakıda anamın məzarı ilə söhbət edirəm. Yuxularıma atam iki dəfə gəlib. Onda görmüşəm atamı. Və əlini çiynimə qoyubdu. Hiss etmişəm ki, arxasız deyiləm, güvəndəyəm... (kövrəlir).

... Mən Tahir müəllimlə İmişlidə, Masallıda, Şamaxıda, eləcə də Bakıda olan görüşlərimizdə onu daha çox zabit kimi ”oxumuşdum”, zabit kimi sevmişdim. Rəhmətlik Ələsgərin vasitəsilə yaxından tanıdığım Tahir Kazımovun əsərləri ilə yaxından tanış olandan sonra isə onun söz dünyasının da qonağı oldum. Gəzib-dolaşdıqca o dünyada gördüm ki, mənimlə yanaşı, Tahir müəllim də addımlayır. Çevrilib baxdım. Gördüm ki, Tahir müəllim öz yazı otağındadı. Amma... Amma o həm də mənimlə birlikdə oxucusu ilə yanaşı, öz əsərinin təqdimatını keçirir, qəhrəmanlarını mənə təqdim edir...

***P.S.** Yəqin ki, Azərbaycanda, xüsusilə AMEA-nın Tarix İnstitutunda Tahir Kazımovun əsərlərindən, tariximizin araşdırmasına həsr etdiyi bədii, tarixi, sənədli əsərlərindən xəbərdardılar. Və yəqin ki, bu əsərlərə və onun müəllifinə dəyər vermək barədə orada da düşünürlər... Yəqin ki, AYB-də də bu məsələ unudulmayıb.*

# QƏHRƏMANLARINI TƏQDİM EDƏN YAZIÇI

## O, mənimlə yanaşı addımlayırdı

Bilmirəm, bu yazdıqlarım indi oxucuya, eləcə də həmsöhbət olacağım insana nəsə xatırladacaq, yoxsa yox, amma yazmaya da bilmədim. Çünki yaxşıları, vaxtsız köç edənləri, ümumiyyətlə, insanları xatırlamağı bir adətə çevirmək lazımdı. Qoy ruhları şad olsun.

Və bizim də içimizdə azacıq da olsa rahatlıq yaransın. Axı, andıqca, xatırladıqca özümüzə də anmaq, xatırlanmaq haqqı qazanırıq.

Sovet dönəminin ən gözəl xüsusiyyətlərindən biri adamları, xüsusilə gəncliyi kitaba, qəzetə bağlamaq idi. Hara baxsan, hara getsən əlində kitab olan adama rast gələrdin. Insanlar səhər-səhər qəzet köşkünün önündə növbə tutardılar. O illərin ən populyar qəzet və jurnalları var idi. Onların arasında ”Ulduz” jurnalı xüsusilə seçilirdi. Indi üzbəüz oturduğum o nurani insan həmin o illərdə, yəni 60-cı illərin sonlarında ”Ulduz” jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdı. Ona qədər isə...

Sovet-alman müharibəsinin şıdırğı dövrü idi. Necə deyərlər, faşist tankları SSRİ-nin içərilərinə doğru sürətlə irəliləyirdi. Həmin vaxt SSRİ-i tərkibində olan Azərbaycanda da hamı müsəlləh əsgər olmuşdu. Bu əsgərlərdən biri də Cəbrayıl rayonunun Soltanlı kəndindəki məktəbin direktoru Şirin müəllim idi.

Hamının böyük hörmət və sevgisini qazanmış bu insan bütün gücüylə üç övladını - iki oğul və bir qızının ali təhsil almasına, savadlı olmasına çalışıb. Çünki ətrafdakı savadsız çevrə ona həmişə bir ağırlıq yaşadıb. Istəməyib ki, övladları da onlar kimi olsun. Lakin müharibə ona arzularının şahidi olmaq imkanı verdi. 1941-ci ildə o da Sovet ordusunun sıralarına daxil oldu, silaha sarıldı. O, döyüşə gedəndə Tahir hələ dünyaya gəlməmişdi. Ona görə də ata nisgili Tahirin ucundan tutub soruşuram:

**- Tahir müəllim, sizi necə təqdim edim oxuculara? Yazıçı kimi, yoxsa təqaüddə olan polis polkovniki kimi?**

- *(Gülümsəyir).* Bilirsən Əbülfət, mən ömrümün böyük hissəsini hüquq-mühafizə orqanlarında xidmətə həsr etmişəm. Amma xidmət dövründə də qələm yazı masamın üstündə olub. Xırda qeydlər etmişəm ki, zamanı gələndə yararlana bilim. Bax, bundan sonrasını özün müəyyənləşdir...

**- Bəli, mən sizlə həmsöhbət olmağa gəlməmişdən öncə yaddaşımı vərəqlədim, haqqınızda yazılanları gözdən keçirdim. Sonra qatladım onların hamısının vərəqini. Ona görə ki, sizi ilk dəfə İmişlidə, o vaxtkı milis şöbəsində rəis vəzifəsində görmüşəm. Adamlar arasındakı nüfuzunuzun şahidi olmuşam. Onda 1991-ci il idi. Ölkədə qarşıqlıq, bir hakimiyyətsizlik var idi. Siz isə öz yerinizdə idiniz.**

- Doğrudan da mən polisə sovet dövrünün komsomolunun təqdimatı ilə 1969-cu ildə getmişəm. Ona qədər isə ali təhsil, hərbi xidmət və üç il isə ”Ulduz” jurnalında ədəbi işçi kimi çalışmışam. Ilk yazım Moldova haqqında olubdu. Orada hərbi xidmət keçdiyimdən bu ölkə ilə bağlı oçerk yazmışam və o da diqqəti cəlb edib.

**- Tahir müəllim, yaradıcılığa həvəs, maraq hardandı sizdə?**

- Bilirsiniz, Azərbaycanın dəyərli şairlərindən biri Sərdar Əsəd ruhlandırdı məni. Kənddə yaşayırdıq. Su suvarırdım, Sərdar Əsəd kəndimizə gəlmişdi. Bir xeyli söhbət etdik. Şair şəhərə qayıdandan sonra barəmdə ”balaca suçu” adlı məqalə yazdı. Inanın ki, bu məqalə mənə qol-qanad verdi. Başladım atamın əsgər məktublarını toplamağa. Düzünü deyim ki, atamdan 38 məktub qalıb, cəbhə məktubu. Çox qə-



Əbülfət MƏDƏTOĞLU

## "Valideynlərim və sevdiklərim könüllü getdiyimdən xəbərsiz idi"

*Müsahibimiz Vətən müharibəsi iştirakçısı, gənc şair Həsən Kürdü.*

**-Vətən müharibəsinə yola düşməyindən danışardın..**

- Oktyabrın 1-i könüllü olaraq qeydiyyatdan keçmişəm. 9 oktyabr səhər tezdən zəng gəldi, bir saat sonra komissarlıqda olmağımı istədilər.

Çox gözəl hiss olsa da, çox məsuliyyətli və çətin idi. Valideynlərim və sevdiklərim könüllü getdiyimdən xəbərsiz idi. Həyatımda ilk dəfə idi ki, onlara yalan danışırdım.

Daha doğrusu bu ağırlıqda yalan. Salyandan 42 nəfər yola düşdük. Uşaqlar yolda toya gedirmişcəsinə sevinirdi. Heç kim qorxmurdu, heç kim çəkinmirdi. 42 nəfərin 35-i könüllü olaraq müharibəyə yollanırdı.

Bir müddət tamamlanma məntəqəsində qaldıq. Hissə-hissə bizi cəbhəyə göndərirdilər. Mən özüm əsasən Qubadlı rayonunun müdafiə və mühafizəsində iştirak etmişəm.

### *Hospitalda iki ayağını itirən yoldaşlar var idi, utanırdım*

**-Hansı çətin vəziyyətlərin oldu?**

Ən böyük çətinliyimiz arxa cəbhədə gözləmək idi. Yoldaşlarım da bunu təsdiqləyər. Hər şeyə dözməyə çalışdıq. Çətinliyi belə göz ardı edirdik. Kişiyik. Kişi gərək dözməyi bacarsın. Özü də ki, elə bir yerdə. Ora gedən hər kəs başına gələcək çətinlikləri, təhlükəni göz önünə alıb getmişdi. Ona görə də, heç bir çətinliyə görə şikayət etmirdik. Mənim ayağım 3 ay axsadı.

Vaxt oldu batinkanı qanayan ayağıma geyinməyə məcbur oldum.

Amma bunu heç kimə bildirmədim. Desəydim əllərindən gələni edirdilər, amma yox. Deyə bilməzdim.

Tibb məntəqəsində, hospitalda iki ayağını itirən yoldaşlar var idi. Utanırdım. Ayaq yarasına görə harasa müraciət etməyə utanırdım.

**-Bölmənizdən şəhid və yaralılar oldumu?**

-Bizim bölmənin yox, taborun şəhidləri, yaralıları var idi. Tam olaraq saylarını bilmirəm. Hamısının ruhu şad olsun. Haqlarını bizə halal etsinlər.

Şəxsən tanıdığım insanları itirdim. İndi sayıram görürəm ki, sayları 30-dan çoxdur.

Kəndlilərimiz, uşaqlıq dostlarım, əsgər yoldaşlarım, komandirlərim. Şəxsən tanıdığım çox insan itirdim.

### *Şair də bu vətənin çörəyini yeyir, suyunu içir*

**-Bir şair üçün müharibə nə deməkdir?**

-Bir şair üçün müharibə hər şeydən öncə borc deməkdi. Mənə komisarlıqda təkid etdilər ki, sən getmə, bizə burda lazımsan, şeirlər yazmalısan, hekayələr yazmalısan.

Mən isə cavabında onlara dedim ki, şairi insanlardan seçən yeganə xüsusiyyəti şeir yazmasıdır. Şair də bu vətənin çörəyini yeyir, suyunu içir. Bu vətəndə yaşayırıqsa vətəni qorumaq da bizim öhdəmizə düşür.

**-Müharibədə ən çox xatırladığın şeir hansı olurdu?**

-Müharibədə ən çox Tofiq Həsənlinin "Gözəl dur çıx görüşünə, qapına bir qərib gəlib" şeiri idi. Adını bilmirəm şeirin. Əzbərimdə olan az sayda şeirlərdən biridir. Tam olaraq da olduğumuz vəziyyətə uyğun idi.

**-Mülki həyata öyrəşə bilirsən?**

-Sözün düzü ilk günlərdə öyrəşmək çox çətin idi. Yeriyəndə elə bilirdim ayağımın altında mina var. Gecələr yuxum qarışırdı, bəzən özümdən xəbərsiz qəribə sözlər danışırdım. İndi daha yaxşıyam. Bəhs etdiyim kimi, itirdiyim insanlar mənə çox təsir etdi. Ona görə də psixologiyamın yerinə gəlməsi üçün yəqin bir qədər də zamana ehtiyac var.

### *Bütün olanların yuxu olduğunu düşünürəm*

**-Müharibədən sonra insanın həyata baxışı dəyişir.**

- İnsanın həyata baxışı çox dəyişir. Qorxu hissini itirirsən. Bu məncə yaxşı hal deyil. Hələ də tam anlamıram ki, nə, necə oldu? Orda olanlar yuxu idimi?

Mən həqiqətən müharibədə iştirak etdimmi? Mənim də bu qələbədə payım varmı? Hərdən bütün olanların yuxu olduğunu düşünürəm. Fikrim çox qarışıqdı. Həddindən artıq çox.

**-İki kitabın dərc olunub. Düzü, bu barədə mən də indi bilirəm.**

-Hə, kitablarım 3 il əvvəl dərc olunub. Xəbərsizlik deyəndə ki, mənim o zamanlar indiki qədər kütləm yox idi. İndi kitabım çıxsa yəqin ki çox adam paylaşar, saytlar dərc edər. O vaxt isə belə deyildi. Çox az kütlə tərəfindən tanınırdım.



Yeri gəlmişkən onu da deyim ki, yaxın ərəfədə müharibədə yazdığım kitabım çap olunacaq. Ondan yəqin ki, xəbərin olacaq. O kitabda orda baş verənlər, döyüşə girənlərin, döyüşdən çıxanların dediklə- ri, yaralıların başlarına gələnlər, şəhid ailələri ilə müsahibələr qeyd olunacaq.

**-"Xalqın şairi" telelayihəsinə qoşulmuşdun. Doğrudanmı əsl şeiri kütlə, səs həll edir?**

- "Xalqın şairi" mənim üçün özümü yoxlamaq üçün şans idi. Ora çıxdım və öz hesabıma finala qədər adladım, ikinci yerin sahibi oldum. Düşünürəm ki, 21 yaşlı, heç kimin tanımadığı bir adam üçün böyük uğurdur. Hər şeyi kütlə həll edirsə sən artıq kütlədən asılı biri halına gəlirsən. Kütlədən asılı olmağa düzgün baxmıram.

Amma o da baxır kütlənin səndən nə istədiyinə, səndən nə gözlədiyinə. Mən kütləmdən razıyam. Onların sayəsində az da olsa sevilmişəm, yaradıcılığımı sevmişəm. Çox sağ olsunlar. Ümumiyyətlə gözüm heç vax şöhrətdə olmayıb, müharibədən sonra isə heç ola bilməz. Bir neçə dəfə sosial şəbəkələrə əlvida demək ağlımdan keçib. Amma bəzi məsələlərdə görə bu alınmayıb. Gələcəkdə necə olacağını bilmirəm. Oranın şou olduğunu deyə bilmərəm. Özümdən götürürəm. Mən kənddən ora gələn, heç kimin tanımadığı, "day-dayı" olmayan bir insan idim. Şeirlərimin hesabına o yerə qədər gələ bildim.

**-Həmin zaman bu gün istedadına inandığımız, çox ciddi şairlər belə layihələri şou sayıb qoşulmadı.**

-Orda çox istedadlı şairlər də var idi. Bəziləri səhv şeir seçimi ucbatından finala adlaya bilmədilər. Məncə onlardan biri Elşən Mehdi idi. Elşən mənim o müsabiqədə bir nömrəli namizədim idi. Səsləndirdiyi şeir isə , münsiflərin zövqücə olmadı desəm yanılmaram. Bəzi şairlərə haqsızlıq olunduğunu da söyləyə bilərəm. Məsələn Ümüd Abbas mütləq finalı görməli şair idi. Heç vaxt ora qatıldığım üçün peşman olmaram. Ora mənə çox şey qazandırdı.

**Söhbətləşdi:**
**Emin Piri**

## TƏRLAN QULİYEVİN 21 YAŞININA HƏDİYYƏSİ

**2000 - ci il yanvarın 26-da anadan olub Quliyev Tərlan Mehman oğlu. Astarada Ərçivan qəsəbəsində. Ərçivandakı 4 nömrəli tam orta məktəbin məzunudu. 3 qardaşdan ikincisidi Tərlan. Şəkillərinə, video görüntülərinə baxdım. O qədər gülərüzdü ki. Şən, dəcəl, mehriban - belə gördüm Tərlanı. "Eləydi"-deyir onu oğlu kimi böyüdən, 4 nömrəli məktəbin dil-ədəbiyyat müəllimi olan xalası Xəyalə xanım."Çox şən, zarafatcıl, mehriban idi. Hədsiz qayğıkeş idi".**

Yaşının, təbiətinin çılğınlığına baxmayaraq böyüdükcə doğum günündə ürəkdən sevinə bilmirdi Tərlan. 26 tarixi iri, qara gözlərinə kədər salırdı: 26 - sında Xocalı faciəsi baş verib, nə fərqi bir ay sonra olub. Bunu bağışlaya bilmərik. Bəlkə də hər il yanvarın 26 - da təkcə özü böyüməyib, Xocalı dərdi də, Vətən ağrıları da böyüyüb onunla birlikdə? Ona görə arada "Xocalını da azad edəcəyik, Şuşaya gedəcəyik biz"- deyib tez-tez.

### *Həyat həmişə üzə gülmür*

Birdən elə şillə çəkər ki, səndələyərsən, güclə ayaqda qalarsan. Bir dayağın, tutacağın olmasa, yıxılarsan... Şəxsi həyatı alınmayan Xəyalə müəllimə üçün də Tərlan yaşamaq səbəbi idi. Bütün həyatını ona bağlayıb. "Sən mənim xalam yox, anamsan, mən xoşbəxtəmiki anam var" deyərdi Tərlan. "Həmişə ona naz edərdim "mənim yaraşıqlım, gözəlgözlüm" deyərdim. O mənim oğlum idi. Onun iki anası vardı: bacım Vüsalə, bir də mən. Çox vaxt yanımda qalırdı. Hər gün səhər tezdən onun görüşünə gedirəm indi. Yenə əzizləyib, oxşayıram. Çoxlu güllər əkmişəm məzarına, gülləri çox sevirdi, deyirəm güllərin ətrinə oyanar bəlkə... Hər yerdə onu axtarıram. Şair deyiləm, onun üçün şeirlər yazıram:

*Bu axşam yenə də ürəyim dolub,*
*Gözlərim yol çəkir, gələsən bəlkə...*
*həsrətli baxışlar yollara qonub*
*Mənim həsrətimi görəsən bəlkə..."*

"Mənim övladımdı. Tək mənim yox, hamının sevimlisi idi. O qədər dostu vardı ki. Mən Tərlan haqqında nə deyim ki? Hansı söz bəs edər onu bəzəməyə? Vətən sevdalısıydı. Könüllü getdi müharibəyə. "Getmə" də deyə bilməzdik. Özü də fərqliydi. Ölümü də fərqli oldu. Bir ana üçün övlad itgisindən ağır nə ola bilər? Amma oğlum Vətəni üçün Şəhid olmaq istəyirdi. Həmişəki kimi qürur yaşatdı bizə" - söylədi Vüsalə anası.

### *Övlad itgisinə təsəlliverici söz tapmaq olmur*

***Nə Vüsalə xanımın, nə də "onsuz yenə tək qaldım" deyən Xəyalə xanımın göz yaşlı səsinə cavab verə bilmirdim.***

***"Nə gizlədim, dedim, bəlkə getməyəsən, qala bilərsən. Atası Bələdiyyə sədridi, düşündüm ki, saxlada bilər". "Nə danışırsan? Nə özümə, nə sizə, nə də atama bunu yaraşdırmaram. Ömrümü "atası saxlatdırdı" sözü ilə yaşaya bilmərəm. Atam da etməz bunu. Mən alçaq deyiləm. Siz məni belə böyütməmisiz axı... Şəhid olmaq alçaq kimi yaşamaqdan min dəfə, milyon dəfə şərəflidir. Nə fərqi var nə vaxt öləcəm? Necə ölməyin fərqi var"- deyib üzümə elə baxdı ki... Hələ də o baxışları unuda bilmirəm. Tərlan istədiyi kimi Şəhid olub, mənsə hələ də dediyim sözün peşmanlığın çəkirəm...***

Ömrün elə çağındaydı ki, Tərlan hər saat, hər gün arzularına sarılırdı, ilk sevginin şirinliyində xumarlanırdı, bütün həqiqətlərin gözəlliyinə inanırdı... Uçurdu. Uçurdu Tərlan elə tərlan kimi. Yaş o yaşdı - xəyallardan qanad taxıb uçarsan. Amma bütün bunlardan daha üstün, daha möhtəşəm arzusu vardı Tərlanın. Düşünəndə gözəlliyindən qürür duyduğu, inandığı, güvəndiyi həqiqəti vardı Tərlanın: Qarabağ Azad olacaq! Xocalı qisası alınacaq. Döyüş yoldaşları da bunu təsdiq etdilər: O qədər əmin idi ki, qələbəyə. Başımıza güllə yağanda, sağ qalacağımıza ümid etməyəndə belə Ali Baş Komandan kimi yumruğunu qaldırıb şən səslə "Qarabağ Azərbaycandır və nida" deyirdi. Kiminsə üzündə azca tutqunluq görən kimi "Gül, sevin,



Zəngilana gedirik, Qubadlıya, Şuşaya, Xankəndinə gedirik - deyə ruh verirdi adama -dedi Emil. Bir də dedi ki, " Bir sinifdə oxumuşuq, illərlə bir yerdə olmuşuq, bir-birimizi bu qədər tanımamışıq. Döyüşdə 3 gün də bir yerdə olsan, adamı daha yaxından tanıyırsan. Tərlanı qəhrəman kimi tanıdım. Ona baxıb fəxr edirdim". Füzuli, Ağdərə, Cəbrayılda ən ağır döyüşlərdə olub ilk gündən Tərlanımız. Cəbrayıl uğrunda döyüşlərdə snayper gülləsinə tuş gəlib İkinci Qarabağ Savaşının könüllüsü Tərlan Mehman oğlu Quliyev.

***Döyüş yoldaşı Şamxalın söylədiklərindən: Cəbrayıl istiqamətində irəliləməliydi bölüyümüz. 3 taqıma bölünmüşdük. Tərlan ilk taqımda idi.Yəni həmişə irəlidə olmaq istəyirdi. Orda strateji əhəmiyyətli yüksəkliklər var, onları ələ keçirməliydik. 4 saatdan artıq yüksəkliyə qalxdıq, 5 saat döyüş oldu. Yüksəkliyə qalxanda ağırlıq etməsin deyə, ərzaq, su ehtiyatlarını götürmürdük. O döyüşdə Tərlan yaralandı və şəhid oldu. Biz də geri addım atmadıq. Nə yaxşı ki, Vətən qarşısında da, şəhid olan döyüş yoldaşlarımız qarşısında da borclu qalmadıq".***

### *İkinci Qarabağ Savaşı*

başlayanda Tərlan Həqiqi Hərbi Xidmətini 8 ay idi qayıtmışdı. Savaş başlayan kimi döyüşə yollandı Tərlan. Atası Meman Quliyev rayonun, qəsəbənin hörmətli insanlarındandır. Oğlunu "gizlədə" bilərdi. "Mən bunu oğluma necə qıyardım? Valideynlər övladlarının arzularını yerinə yetirmək üçün çalışır ömür boyu. Mən qürurlu, vicdanlı oğul böyütmüşdüm. "Bilirəm ki, qələbə bizimdir. İstəyirəm torpaqlarımızın azadlığında mənim də payım olsun" . Mən oğlumun bu müqəddəs arzusuna qarşı necə çıxardım? Nə mən, nə də Tərlan bu utancla yaşaya bilməzdik" - dedi Mehman bəy. Torpaq hamıya Vətən olmur. Onu sadəcə yaşayış yeri sayanlar gizlənər. Onların Vətəni olmur. Torpaq Vətən adını yaşadanlarındı - Tərlan kimi tərlanlarındı. 26 yanvar 2021- ci ildə 21 yaşı oldu. 21 yaşına "Cəbrayılın azadlığı uğrunda", "Vətən uğrunda" medallarını, Azərbaycana isə Qələbə sevincini yaşadan oğul hədiyyə etdi Tərlan.

**Düşündüm ki, Tərlan bəlkə də ən çox bu doğum günündə sevindi. Göylərə baxdım. Göylər tutqun, hava soyuq olsa da Qələbə günəşini gördüm. Bir də doğma yurdun başı üstündə qanad çalan Tərlanı. 30 illik yaralarımızı sarıyan tərlanları gördüm.**

**Kamalə Abiyeva**



*Eminquey*

# Şairə, yazıçıya hər missiyanı yüklə, amma...

***Bir şeiri yazmaq üçün bəzən 10 il gözləməli olursan. Məsələn, bir roman (hətta ən zəifi belə) 10 dəqiqəyə ərsəyə gəlmir. Əmək və əziyyət sərf olunur. Və yaşantılar, müşahidələr. Və səhərsi sən bu əməyini maddi dəyərə çevirəndə kənardan nə qədər desən mıx müəllimlər ortaya çıxır ki, bəs kitabın bahadı, bəs kimdir oxuyan?!.***

***Mən kitabımı çap etdirəndə arxayın idim ki, tirajımı son dənəsinə kimi satıb qurtaracam. Elə də oldu. Əgər bu ölkədə, 10 milyonun içindən iki yüzcə oxucum da yoxdursa, niyə yazıram?***

***Kim deyirsə ki, mən özüm üçün yazıram, inanmayın. Yaradıcılıq eqo məsələsidir. Yaradıcılıq özünü cəmiyyətə, dünyaya sübut etmək eqosudur. Diqqət görməyən sənət adamı məhv olar. Bu mənada mən də var olmaq üçün, varlığımı sübut etmək üçün yazıram.***

***Amma ümidsizliklər adamı tez dartır özünə. Fəst fudlar kimi.***

***Rusiyada indiyə kimi davam edən ənənələr var. Ölkənin yaxşı imzalarına xalqdan xüsusi hörmət. Məsələn, Andreyin kitabı çap olunur. Onu oxuyan biri zəng vurub evinə, ya da bir məkana dəvət edir. 20-30 dostuna da xəbər verir ki, bu gün şair Andrey qonağımdı, yığılın, gəlin. Şairi qonaq edirlər, axırda da hamısı yığılır, bir pul atır ortaya. Verirlər Andreyə ki, al bu pulu, get, bundan da yaxşısını yaz. Müdirim danışır ki, o vaxt tədqiqatçı Firidun Şuşinskiyə də belə münasibət vardı. Azərbaycanda! O heç vaxt heç bir yerdə rejimlə işləmədi. Yazdı, bəhrəsini yedi. "Şairi xalq saxlayar" deyimi burdan yaranıb da. Şairi xalq saxlayar deyəndə alt qatında bu da var. Sən ona dəstəyini hiss etdirməlisən.***

***Türkiyədə Yılmaz Özdil fırtınası var. 300 min tirajla satılır. Narazıdırlar. 80 milyonluq xalq üçün azdır, amma bizim üçün fantastikdir. Ən azından formalaşdıra biliblər oxucu ilə münasibətləri.***

***Rusiyada ortabab yeni imzalardan biri kitabını 1000 rubla satırsa, imzalı 3000 rubla satır. Bu, imzaya olan dəyərdi. Oxucu dəyər verirsə imzasına alır. Maddiyyat mənəvi dəyərlə həmişə nizam təşkil edib. Heç vaxt bir-birindən ayrılmayıblar.***

***Hesablamışam, keçən ilin fevralından bu yana satılan 200 kitabımın (birbaşa özüm imzalayıb satmışam) təxminən 150-sini qadınlar alıb və Mənim üçün ilkdir ki, kiçik oxucu kütləmlə kiçik tirajlı kitabımın hamısını satıb qurtarıram. 20 kitab qala, ya qalmaya. Bu, Azərbaycanda oxucu genderinin göstəricisidir, ya yox, bilmirəm, amma mənə görə maraqlı göstəricidir. Və sizə deyim ki, kitabın qiymətindən artıq dəyəri də (həm maddi, həm də mənəvi) elə qadınlar verib. Baxmayaraq ki, kitabı 10 manata satanda, bəzi dostlar "bahadır" deyirdilər. İstənilən halda sevindiricidir.***

***Və qeyd edim ki, kitabımın çapına öz cibimdən pul xərcləməmişəm. Şeirlərimə dəyər verən bir xanım maddi dəstək verib.***

***Bu gün Xatirə İslam deyəndə ki, TV məni çağırırsa pul ödəməlidir, hamı şoka düşür, daşqalaq edir. Xatirə düz deyir! Bilirsiniz niyə? Məsələn, Xatirə, yaxud qeyriləri TV-dən, saytdan dəvətə görə qonorar alsalar (ki, bu dünyada belədir) toy üçün bayağı mahnı oxumaqdan da əl çəkərlər, ucuz mahnıçılara mahnı yazdırmaqdan da. Həmçinin də şairlər, yazıçılar. Problemin kökü dərindir e. Əvvəlcə cəmiyyəti düzəltmək lazımdı. Ki, müğənni sizin kuklanız, təkxəyiniz deyil, gəlsin, toyda sizi əyləndirsin. Şair, yazıçı dilənçi deyil, sadəcə sizdən dəyər görmək istəyir. Daha keyfiyyətli əsərlər ortaya qoymaq üçün...***

***Əgər sənətçilərinizin, şairlərinizin, yazıçılarınızın sizdən olmağını istəyirsinizsə, bütün missiyaları onların çiyninə yükləyirsinizsə, onun arxasında durmalısınız.***

***Şükür edin ki, imzamızı pulla satmırıq.***

# Bu ədalətsizliyə nəinki dünya birliyi, kainat belə susur, Allah da



*Orxan Saffari*

**Mənə elə gəlir, Qarabağ hadisələrindən sonra doğulan gənclik o illəri bir o qədər də hiss etmir. Hiss etmir deyəndə, bu da təbiidir, normaldır. Görmədiyimiz, yaşamadığımız bir şeydir. Amma faciənin miqyası o qədərdir ki, dolayısı ilə bu problem bizləri də əhatə elədi və elə "boynumuza" qaldı. Uzun uzadı siyasi söhbətlər etmək fikrində deyiləm, amma məsələ elə həm də siyasətdir. Yaşımızı aşan bu problem bizlərə qaldı. Hərdən yaşlı nəsli günahlandırıram ki, sizlərin həll etməyə cəsarətiniz çatmadığı məsələləri, bizlər qanımızla ödəməli olduq. Narazı deyilik amma...Bu da bir borcdur, bu da bir yol idi..**

Əl- qərəz.

...26 fevral, Xocalı.

Xocalıya ədalət...

Yoxdu Xocalıya ədalət! Xocalıya ədalət heç vaxt olmayacaq da! Qisas alındı, ya alınmadı fərq etmir. O qisası almaqmı olar heç? O vandalizmin cavabını vermək asandırmı? Bəşəriyyətin görüb görəcəyi ən böyük bəladır. Nə edək, necə edək? Danışmaqdan, kədərlənməkdən savayı əlimizdən heç nə gəlmir...

### *Aydın məsələdir ki,*

***Qarabağın digər yerlərində olan faciələrin, işğalın hər biri dəhşətlidir, amma sanki, Xocalı bir başqa dəhşətdir. Xocalının adından qan yağır, Xocalının adının özü bir faciədir.***

Mən bir az adların enerjisinə də inanıram. Fikir verin, Xocalı necə də əzəmətli, necə də ağır səslənir. Sanki bu torpağın başına mütləq bəla gəlməli imiş kimi..

***Ümumiyyətlə, Xocalı elə bir addır ki, bununla bağlı nə desən, nə yazsan, neyləsən e, neyləsən azdır, neyləsən olmur. Nə bir yazıçı onu ifadə edə bilər, nə bir rəssam çəkə bilər, musiqiyə gəlsə, bəstələnə bilməz.***

İlahi, o kadrlar nədir axı? İlahi, bizim başımıza bu nədir gəldi? Vandalizm, terror başqa şeydir. Xocalının yanında bunlar uşaq oyuncağı kimi qalır. Terror bilirsən ki, terrordur. Xocalı Kərbəla müsibətindən də o tərəfə bir faciədir.

And olsun, adicə Bakıda Xocalı heykəlinin yanından keçəndə qəribə olur adam. Görəsən, dünyada elə bir adam var ki, onu görməsə də, hiss edə bilməsin? Yəni, bir insan o qədər hissiyyatsız, duyğusuz ola bilərmi?!

Açığı, bir şey deyim. Hər il Qarabağla bağlı keçirilən tədbirlərdən zəhləm gedib. Yəni, bir qrup qalstuklu adamın gəlib şablon informasiyalar verməsi, məncə də hamını sıxıb. Sadəcə, abrımıza büküllmüşük. 20 Yanvar günü məktəblərdə, idarələrdə elə tədbirlər olur ki, adamın ürəyi üzülür. İndi bu məsələnin başqa tərəfidir. Yeganə Xocalıdır ki, onunla bağlı bütün tədbirlərdə qəribə olmuşam. Sıxılmamışam. Hər il eşitdiyim şeyləri hər il yeni söz imiş kimi dinləmişəm.. Xocalıdan çox utanmışam.

### *Gözümün önünə*

***məzar daşında şəkli belə olmayan 5 yaşlı uşaq gəlir..İlahi, beş yaşlı uşağın tanınmaz hala düşdüyü bir şeydə ədalət.. Necə də kədərlidir.***

***Yəqin ki, bütün bu dediklərim elə dediyim kimi adı ilə bağlıdır.***

İlahi, o soyuq gecə, şaxta, dönüb ölənlər, isti gülləyə buz kimi qalanlar, meyidlərinin üzərində dəhşətli işgəncə verilən körpələr, qadınlar...

Mən heç ah-a falan da inanan deyiləm. Amma Allah həqiqətən varsa, o körpələrin ahı necə lazımdır tutmalıdır. Həmişə düşünmüşəm, görəsən, insan nə dərəcədə vəhşi olmalı, insanlıqdan çıxmalıdır ki, o cür şeylər edə bilsin? İnsanın psixologiyası, insanlığı, mənəviyyatı bu qədərmi yox olar?!

***Xocalı ay, Xocalı..***
***Adını qan bürüyüb..***

Xocalı elə yerdir ki, oranın yayı da qışdır bütün fəsilləri həmin şaxtalı gün kimidir.

Şəxsən mən Qarabağın hər yerinə könül rahatlığı ilə gedərəm, orda olanları bir anlıq sevincdən unuda bilərəm. Bu qədər vaxtdan sonra bizim olanın qayıtmasına görə. Amma inanmıram ki, Xocalıya gedim, orda nəsə fərəhlənim, deyim, əziz Xocalı, biz burdayıq, nə gözəl yerdi...

***İndi təsəvvür etdim, qəribə oldum. Düşündüm ordayam.. Ağlıma ilk nə gəldi? Ayağımı qoyduğum yerdə kimin başına faciə gətirilib.... Mən ora ayağımı ürəklə basa bilmərəm. Bəlkə də tullana-tullana gəzərəm...***

İkinci Qarabağ savaşında Xocalıda şəhid olan bir əsgərimizi gördüm. İlahi, Xocalı faciəsindən sonra doğulan uşaqlar da orda şəhid oldu. Bu, mənə hər şeydən daha dəhşətli gəldi. Məhz Xocalıda- Şuşa yolunda şəhid olması. Xocalıya gedəndə..

### *24 Fevral, 1992-ci ildə*

***Xocalıda sonuncu toy mərasimi olub. Fotosuna baxıram, şəkildən kədər yağır. Şəkildə olan kişilər əsir götürülür, faciəvi şəkildə öldürülür. O cümlədən qadınlar da...***

Yandırılan insanlar, öldürüləndən sonra gözü çıxarılanlar, döşü kəsilən qadınlar, uşağı qarnından çıxarılan hamilə qadınlar.. ilahi, hansı birinin ağırlığından danışasan?

Bilmirəm, bəlkə tək mən beləyəm, amma Xocalı ilə bağlı heç nə mənim ürəyimi soyutmur, soyuda bilməz. Yazılan minlərlə şeirlər, deyilən milyonlarla sözlər, çəkilən filmlər, nələr nələr. Heç nə. Xocalı adı gələndə, susun, xahiş edirəm. Dünya sussun.

**Bu ədalətsizliyə nəinki dünya birliyi, kainat belə susur, Allah da...**



## ŞƏRHSİZ!

**Ağırdı.**
**Gül satır və arada isinmək üçün içəri gəlir... kitab oxuyur.**
**Bu körpənin günahı nədir?..**

## *Puşkov: NATO bundan imtina etsə, parçalanacaq*



**NATO Rusiya təhdidi konsepsiyasından imtina etsə, dağılacaq. Bunu rusiyalı senator Aleksey Puşkov deyib.**

**Senator, həmçinin SSRİ-nin çöküşündən sonra alyansın mövcudluğunun heç bir mənası qalmadığını bildirib: "Ona görə də Bayden və Stoltenberqə Rusiya təhdidi lazımdır. Bu, NATO-nun mövcudluğunun və ABŞ-ın Avropa üzərində strateji nəzarətinin saxlanılmasının yeganə əsasıdır".**

**MEHRİBAN**

## *Zaur Əliyev:*

## Əmi, o ermənini öldür



**1023 nəfəri əsirlikdən və 500-dən çox dağ və meşə yolu ilə qaçan Xocalı sakinlərinin xilaskarı Milli Qəhrəman Allahverdi Bağırovun soyqırımdan beş gün sonra Ağdamda dedikləri. Öz qulağımla eşitmişəm: "Biz Xocalıya köməyə gedəndə fermada ermənilərin saxladıqları azərbaycanlıları xilas edən zaman dörd ermənini də həbs etdim. Bir uşaq var idi, əsir götürülənlər içərisində. Ağdama doğru gələndə o uşaq yaxınlaşıb mənə Əmi o ermənini öldür, o mənə çox zülm verib deyəndən sonra tapançamı çıxardıb həmin ermənini öldürdüm. Uşaq dərindən nəfəs alıb sağ ol əmi, ürəyim sakitləşdi deyəndən sonra gözlərim yaşardı".**

## İlon Mask bir gündə 15 milyard dollar pul itirdi

**"SpaceX" və "Tesla" şirkətlərinin rəhbəri İlon Mask son sutka ərzində 15 milyard dollardan çox vəsait itirib.**

Buna səbəb "Tesla" şirkətinin səhmlərinin kəskin ucuzlaşması olub. Qeyd olunur ki, İ.Maskın sərvəti 15,2 milyard azalaraq 183 milyard dollara düşüb. Hazırda İ.Mask dünyanın ən zəngin şəxsləri siyahısında "Amazon"un rəhbəri Ceff Bezosdan sonra ikinci yerdədir. Ötən gün "Tesla"nın səhmləri 8,55 faiz ucuzlaşıb ki, bu da ötən ilin sentyabrından sonra ən yüksək rəqəmdir.

**MEHRİBAN**

# Bəxtiyar Vahabzadənin poetik dünyası



*Vəliyulla Novruz*

(əvvəli ötən sayımızda)

**Poeziyanı kədərsiz təsəvvür etmək çətindir. B.Vahabzadənin şeirlərindəki kədər dünyəvi kədərdir, bəşəri kədərdir. Bu kədər həm sevincin dəyərini daha da artırır, həm də bu dərdi bəşəriyyətin dərdləri səviyyəsinə qaldıra bilir. Dünyanın, bəşəriyyətin daşıdığı bu ictimai mahiyyətli kədəri şair ümumiləşdirmələr apararaq onu poetikləşdirə bilmişdir:**

*Anam tapşırıldın ana torpağa,*
*Bu ölüm sinəmə çəkdi dağ mənim.*
*Sən mənim arxamdan bənzərdin dağa,*
*Elə bil arxamdan uçdu dağ mənim.*

Şairin yüksək poetik təfəkkürünün məhsulu olan şeirlərinin başlıca xüsusiyyətləri ondan ibarətdir ki, o adi sözçülükdən, mühakimələrdən qaçaraq qələmə aldığı həyat hadisələrini ümumiləşdirib, onu sənətkar təxəyyülündən keçirərək oxuculara təqdim edir. Belə şeirlərdə həyat hadisələrilə şairin yaradıcı təfəkkürü, ürək çırpıntıları, onun hiss və həyəcanı, duyğu və düşüncələri vəhdət təşkil edir və biri digərini tamamlayır. Bu onun şeirlərinin nəinki təsir gücünü azaltmır, əksinə, öz poetikliyilə oxucuların qəlbini daha dərindən fəth edir, onların yaddaşında silinməz izlər qoyur. Şair öz şeirlərində yeri düşdükcə təzadlardan, ritorik suallardan yerli - yerində istifadə etməklə bu şeirlərin təsir gücünü daha da artırmış olar:

*Ey ana təbiət, de, neçin, niyə*
*Gülün budağını tikan bitirdin?*
*Bulağın gözünü qotur keçiyə,*
*Bulanıq suyunu ceyrana verdin?*

Bu şeirdə dərin bir etiraz, həyəcan yanğısı var. Şair ana təbiəti insaniləşdirməklə onun fauna və florası bütünlüklə cavabsız suallardan asılı qalır. O bunun cavabını təbiətin önündə axtarır. Bu ritorik suallar şairi dərindən düşündürür və narahat edir. Eyni zamanda təbiətin taleyi bəşəriyyətin taleyi qədər yüksək önəm daşıyır.

B.Vahabzadənin şeirləri ümumi sözçülükdən, süni pafosdan uzaqdır. Şairin şeirlərinin əsasını təşkil edən millilik və bəşəri ideyaların təbliği ictimai və siyasi məzmunda birləşərək onun poeziyasında dərin fəlsəfi məna yaradır. Ədibin şeirlərindəki orijinal fikirlər öz aktuallığına, təbiiliyinə görə diqqət çəkir. Onun "Qafiyələr" şeiri başdan - başa bədii təzadlar üzərində qurulduğundan bu şeirdə poetik fon yaradır:

*Qafiyədir, iki simin*
*bir kök üstə titrəməsi.*
*Qafiyədir, gül nəfəsi, bülbül səsi.*
*Qafiyədir, sevinc - kədər.*
*Qafiyədir, eniş - yoxuş,*
*axşam - səhər, təzə boyat.*
*Ən müqəyyəd qafiyədir.*
*Ölüm - həyat!*

Elmi idrakla poetik idrakın vəhdətindən yaranan bu şeirdə poetik hislər üstünlük təşkil edir. Şeirin sonunda səslənən "ölüm - həyat" təzadını "yaşamaq - ölmək" şəkilində deyil, şair bunu obrazlı deyimlə poetikləşdirə bilmişdir.

Ümumiyyətlə, hər şeydə məna axtarmaq, onu canlandırmaq, əyaniləşdirmək, bədii detala çevirib təfərrüatı ilə təsvir etmək onun şeirlərinin başlıca xüsusiyyətlərini təşkil edir. Məhz buna görə də şairin "Yaşıdlarım" şeirində geniş mənada işlətdiyi "mən", "insan" anlayışı ilə eyniləşir. "Təklik" şeirində şair cəmiyyətdən ayrı düşüb yaşamağın ağır bir dərd olduğunu önə çəkməklə insanları bir - birilə dost olmağa, birliyə çağırır. "Ana hədiyyəsi" şeirində ananın müqəddəs bir varlıq olduğunu, övladının yolunda öz canını belə əsirgəmədiyini, hətta namaz üstə əllərini Tanrı dərgahına açaraq öz ömründən, günündən kəsib balasına verməyi Allahdan arzu etməsi ana-



lığa ucaldılmış əbədi bir abidənin bədii ifadəsi kimi yadda qalır. "Sərhəd ağacları" şeirində isə "sərhədlərdə qırmızı xətt cızan" bu dirəklərdən şikayət edən şair dərin narahatlıq hissi keçirir:

*Ey taxta dirəklər, sizi dünəndən*
*Yetişən taxıl tək biçib qıraydım.*
*Yanan ürəklərin atəşilə mən*
*Sizi tonqal edib alışdıraydım.*

Göründüyü kimi şairin şeirləri heç bir sərhəd tanımır. Onun poetik xəyalı sərhədləri aşaraq bütün dünyanı dolaşır. Ədibin şeirlərində ifadə olunan bəşəri hislərin poetik məzmunu mənsub olduğu xalqın idrak səviyyəsi, düşüncə tərzi və onun psixologiyası ilə bağlıdır. Yüksək bəşəri ideyalara bağlı olan şair dünyamızı azad görmək istəyir:

*Baxmaq istəyirəm göz işlədikcə*
*Uzanan o geniş üfüqlərə mən...*
*Sökün çəpərləri, daş hasarları,*
*Gözlər uzaqlara zillənsin barı - deyir.*

Gurultulu pafosdan uzaq olan şair bu şeirdə söz və ifadələri məharətlə nidaya çevirərək, onun təsir gücünü, emosionallığını daha da artırmış, mürəkkəb ictimai - fəlsəfi fikri poetikləşdirə bilmişdir.

**B.Vahabzadənin şeirləri öz yığcamlığı, lakonikliyi, fikir və ifadələrin orijinallığı və dərinliyi, yüksək fəallığı, kəskinliyi, mübarizlik ruhu, bədii - fəlsəfi düşüncələrilə daha çox yadda qalır. Burada yüksək emosionallıq duyğusu, şairin keçirdiyi daxili həyəcan hissi onun arzu və düşüncələrilə vəhdətdə öz bədii həllini tapır. Eyni zamanda bu şeirlərdə xalqımızın dünəni və bu günü, onun müasir həyatı, mənəvi aləminin saflığı və təmizliyi, ictimai - əxlaqi keyfiyyətləri, Vətənə olan sonsuz məhəbbəti yadda qalan təbii boyalarla öz bədii əksini tapmışdır.**

**Qəşəm İsabəyli**

# Üzgörənlik bilməyən Füzuli Əsgərli



*Füzuli Əsgərli də*
*Getdi həyatdan.*
*Bir ay...*
*Üç ay...*
*Lap beş ay...*
*Uzağı bir il olsun,*
*Min ilin ölüsü tək*
*Çıxar yaddan.*

Tanışlığımızın illərlə olmasına baxmayaraq qəlbimə mehri düşmüş, düzlüyü, sözübütövlüyü ilə seçilən və haqq adamı kimi görüb tanıdığım Füzuli Əsgərlinin ölüm xəbərini eşidəndə bu misralar ürəyimdən qopub gələn təəssüfüm oldu. Gözümün qabağına Pedaqoji universitetdə uşaq yazıçıları ilə təşkil edib, apardığı görüşlər gəldi, müxtəlif tədbirlərdə çiyin-çiyinə oturduğumuzu xatırladım, son dəfə bizdə - Zahid Xəlillə bir süfrə başına yığısmağımız yadıma düşdü... Ruhumu narahatlıq bürüdü. Göz açıb gördüm ki, Füzuli Əsgərli də yoxdu artıq...

Təbii ki, fiziki ölümünə qovuşan Füzuli müəllimin zəkası hələ on illərlə onu ölməyə qoymayacaq. Axı o, alim idi, tərcüməçi idi, müəllim idi. Dərsliklər müəllifi və tərcüməçi kimi həyatdan yapışıb qalmağa neçə-neçə əltutacağı vardı. Tələbələri hələ uzun müddət onu xatirələrində yaşadacaq. Füzuli müəllimin ölümü ürəyimizə dağ çəksə də, mənfur Covid qadağasına uyğun onu son mənzilə yola sala bilməsək də, təsəllimiz də oldu.

### *Orta məktəbdə oxuyanda*

***kəndimizdə məktəb kitabxanası vardı, kitablar içində əşələnmək olardı işim. Həmişə də kitabı açan kimi onun redaktorunun adına baxardım. Bir imza təkrar-təkrar qarşıma çıxardı -İ. Soltan. İsmayıl adlı bu redaktorun dünyada necə xoşbəxt olduğunu düşünür və redaktor olmaq arzusu bir an da xəyalımdan o yana getmirdi. Sonralar özüm də nəşriyyat redaktoru oldum və bu cəfakeş işin mərhum İsmayıl Soltana hansı məsuliyyət və ağırlıq bahasına başa gəldiyini gördüm.***

Füzuli müəllim də uşaqlıq çağlarından kitab aşiqi olmuşdu. Danışırdı ki, kitabxanaçı şübhə eləyirdi oxumağıma. Xeyli sual-cavabdan sonra sayından artıq kitab verirdi mənə evdə oxumağa. Hətta Bakıdan Masallıya gələn kitabxana üzrə nümayəndələr də mənim oxumağımla maraqlanıb, yaşımdan böyük kitabları mütaliə etdiyimi bilib, sorğu-suala çəkmişdilər məni.

Bəli, elmlə, təhsillə, bədii ədəbiyyatla maraqlı adamlar onlarla kitabları açıb oxuyanda məhz "Füzuli Əsgərli" imzasına rast gəlib, mən İ.Soltanı xatırlayan kimi onlar da xəyallarında dərslik müəllifi kimi, tərcüməçi kimi, redaktor kimi Füzuli müəllimi yada salacaqlar.

Hətta çoxları üçün o, diri olacaq, yaşarı olacaq, xoşbəxt olacaq.

Füzuli Əsgərli son dərəcə işgüzar alim idi. Baxmayaraq ki, xəstələnmişdi, bir an da yaradıcılığından aralı düşmürdü. Hətta bu ərəfədə Zahid müəllimə və mənə zəng eləyib Belarusda nəşr ediləcək antologiya barədə şad xəbər vermişdi. Mən də onlayn qonalğa vədəsini boyun olmuşdum. Özünəməxsus - siyasətdən kənar kəndli gülüşüylə cavab vermişdi mənə. Sonra da:

***-Oğlum tutulmuşdu, sağaldı. Heç bizə də gəlib-getmirdi, deyəm ki, ondan keçib mənə. Hardansa məni də tutdu bu yaramaz xəstəlik.***

***-Zahid müəllim bilir? - Soruşmuşdum.***

***-Yox, deməmişəm, - demişdi.***

Sonra mən Zahid müəllimə dedim. O da zəng eləmişdi. Günaşırı zəng eləyirdim Füzuli müəllimə:



***-Necəsiniz, Füzuli müəllim?***

***-Belə, pis deyiləm, evdən xəstəxanaya keçirtdilər məni.***

***-Hansındasınız?***

***- Fövqəladədə.***

***-Necədi?***

***-Çox yaxşı baxırlar, sağ olsunlar.***

İki gün sonra zəng eləyəndə qaraxəbər telefon "Bu nömrəyə zəng çatmır!" deyəndə dalağım sancdı.Bir müddət əvvəl şair dostum Tariyel Ümid də xəstələnmişdi, o da xəstəxanadan çıxacağından demişdi. Sonra günlərlə zəng eləmişdim - "bu nömrəyə zəng çatmır." Axırda axtarıb qardaşını tapdım, o da Tariyelin oğlu Bəxtiyarın telefon nömrəsini yolladı mənə. Danışdıq. Şükr Allaha ki, salamat olduğunu dedi, amma üzülüb, dedi Bəxtiyar... Rahat oldum...

İndi də Füzuli müəllimin telefonu qara kağızla qarşılayırdı məni. Götürüb Zahid Xəlilə zəng elədim. O da bərk narahat oldu.

***Yadımdadı, yanvarın 6-sı idi. Türkiyəyə - Yaşar bəyə uşaq ədəbiyyatı ilə bağlı tədqiqat əsəri lazım idi. Mən Füzuli müəllimə zəng elədim. Dedi, evə zəng edərəm qızım faylı yollayar sənə. Doğrudan da çox keçmədi fayl poçtuma daxil oldu. Mən həmin dərsliyin elektron versiyasını yolladım alim dostumuza...***

Dediyim kimi, sonralar əlaqə kəsildi Füzuli müəllimlə. Bir gün də Zahid müəllimin uzun zəngindən hiss elədim ki, nəsə xeyir-xəbərlik deyil bu çağırış.

***-Eşitdin də Füzulini?!***

***-Yoox, nədi ki?!***

***-Rəhmətə gedib!***

***-Nə danışırsınız?!***

***-Həəə...***

Elə bil başıma bir qazan qaynar su tökdülər. Fikir məni götürdü.

### *Füzuli Əsgərli bu şəhərin burulğanında*

öz kəndli simasını qoruyub saxlaya bilmişdi. Lazımi məqamda - tənqidi tənqid yerində, tərifi tərif anında dilinə gətirməmiş olmazdı. Haqsızlığa, nahaq danışığa öz rəyini mütləq bildirərdi. Bir dəfə uşaq musiqi kitabıyla bağlı hansısa qurama bir təşkilat tədbir keçirirmiş, Zahid müəllimlə Füzuli müəllim də orda iştirak edirmiş. Onu da deyim ki, bir dəfə ora məni də çağırmışdılar. Rəhmətlik İlyas Tapdıq da ordaydı. Münsiflər heyəti seçdilər və məlum oldu ki, heyətdə şeirin-nəsrin nə olduğunu bilməyən bir qadın, həmçinin uşaq ədəbiyyatından kənar bir şair münsiflərin içinə düşüb. Bu, İlyas müəllimə necə təsir etmişdisə, hirslə etirazını bildirdi ki, axı filankəs uşaq şairi deyil...

Bəli, bu təşkilat indi də mahnı toplusunu müzakirəyə çıxarıbmış. Kitabı biri tərifləyir, biri təqdir edir, söz Füzuli müəllimə veriləndə, bir-iki sualla bu eybəcər kitabın paxırını açıb qoyur ortalığa:

***-Xanım, bu kitabda toyuqların "ka... ka... ka..." deyir, bu nə deməkdi?***

***-Toyuğun səsidir, müəllim.***

***-Yəni qaqqıldaması?***

***-Bəli.***

***-Sizin bu kitabda niyə toyuqlar rusca qaqqıldayır?***

***Xanım tərtibçi söz tapmır deməyə.***

***-Dərd odur ki, inəkləriniz də rusca böyürür?***

***Day tədbirə gələnləri susdurmaq olacaqdı?!***

***Eşiyə çıxanda Zahid müəllim Füzuli Əsgərliyə deyir:***

***-Bu da bizim qazncımız.***

***-Nə qazanc?!***

***-Korladın da işləri.***

***-Niyə?***

***-Bunlar bizi daha çağırmayacaqlar tədbirə...***

Doğrudan da Zahid Xəlillə Füzuli Əsgərlinin ayağı həmin qurama təşkilatın yığıncaqlarından birdəfəlik kəsilir.

# SAZDI SİNƏSİNDƏ SÖZDÜ DİLİNDƏ...

*(I məqalə)*

***Barat,Allah nə var,bizə veribdi,***
***Ürəyə veribdi, gözə veribdi.***
***Qalxıb öz yerini Sözə veribdi,***
***Özü oturmağa yer yoxdu, gördüm.***

***Barat Vüsal***

Anası (nənəsi) əhd etmişdi:
”Oğul nəvəm olsun, 7 il Dan atacam.”

Allah onun səsini eşitmişdi.

Hələ üstəlik bu ailədə doğulan 3 qıza da qardaş payı göndərmişdi...

Həm də Dan gecəsində!

***7 il Barata 7 yaşına qədər Dan atılmışdı.Adına əhd edilib 7 il qurban kəsilmişdi.O Dan gecələrində (Novruzun son çərşənbəsində) əhd edib axşamdan səhərəcən göz qırpmamalıymışlar. Aşıq çalıb- çağırır, dədələr, nənələr axşamdan Dan yeri ağaranacan gözəl söhbətlər edərmişlər.***

***Uşaqlar maraqla gözləyərmişlər ki, sənəkdəki ” qarpız” haçan çıxarılıb kəsiləcək. (Əlbəttə, bu şirin yalan uşaqların yatmamağı üçün uydurulmuşdu.) Kim oturduğu yerdə yuxuya getsəymiş ”cəzalanarmış”-kirmişcə üstündə oturduğu döşəkcəyə yaxud kilimə, ”tikilərmiş”-bənd edilərmiş.Silkələyib yuxudan qaldırar, o ki, var onu lağa qoyub gülüşərmişlər.***

Barat Vüsalın da şair ruhuna gizli-gizli sən demə, bu sazlı-sözlü məclislərin ruhu hoparmış və onu gələcəkdə şair olmağa hazırlayarmış.

Beləcə Dan gecəsi məclisi qızlar səhər tezdən durub obaşdan Dan yeri ağarhaağarda axar sulardan su götürənəcən, Dan yerinin-Dan səhərinin suyuyla sənəklərini, qab-qacaqlarını doldurub gələnəcən davam edərmiş.

Barat Vüsal sonralar xatırlayacaqdı:”Anadan olanda ölü doğulmuşam. Üstümə su töküblər ,qışqırıb ayılmışam.

İndi də şeir yaza bilməyəndə ölü kimi oluram. Elə ki. şeir yazıram, dirilirəm .

Hardansa üstümə su tökürlər.”

Çox güman ki, burda o vaxtın Dan gecəsindən sonra səhər obaşdan Arxdan götürülən axar sudan söhbət gedir...

Hər söz adamı şair etmir ki! (Ölənəcən kimlərsə o qədər yazsınlar-pozsunlar!)

Hər saz adamı şair etməz ki! (Başının üstündə nə qədər çalırlar çalsınlar!)

### DAN ÜZÜ, DAN GECƏSİ

***İlahinin sehrindən zühr edən Novruz bayramında Dan gecələrinin birində Rəbbin sevib-seçdiyi Odərlər yurdunun Qazax elində bir körpə dünyanın gizli- bəlli sirlərini, mehrini yer üzünə yaymaq üçün cahana gəldi.***

Dan gecəsinin sirri-sehri,qərib nəğmələri,tütəkli-neyli duyğuları,Dan suyunun saflığı,paklığı,zümzüməsi,Dan səhərinin nuru, al-şəfəqi hopdu bu körpənin ruhuna.Mübarək duyğularla mayalanan bir ruh.

”Mən Dan gecəsində dünyaya gəlmişəm”deyən şair Barat Vüsalın ömür yolu,tale yolu baxtı,sənəti-bütün yaradıcılığı ömür dünyası oldu.

Ömür karvanını müqqədəs,mübarək duyğularla yükləyən şair torpağa ayaq basdığı gündən onu sevdi,əzizlədi,mehrini-ülfətini ona saldı.

Torpağın hallalıq mayası ilə,bərəkət duaları ilə böyüdü.Sonralar xatirələrindən birində etiraf etdi ki,ilk şeirini uşaq vaxtı quzu otardığı yerdə ağzı üstə yerə döşənib şəhadət barmağıyla qum kimi narın hala düşmüş bir yolun torpağına yazıb.



Birdən necə olubsa günəşin istisindən başbaşa verib yatmış quzular yellənib onun torpağa yazdığı misralarını və adını ayaqlayıb hər şeyi məhv ediblər.İlk şeiri də, adı da torpaq altında qalıb,itib.

O,böyüdükcə,yaşa dolduqca Dan gecəsinin qaranlığında ilişib qalan sirrin (bəlkə də şairliyinin!)üstünü açdı.

Ruhani duyğularını torpağın köksünə hopdura-hopdura tanınmaq, görünmək istədi,torpaqdan güc aldı,yenidən torpaqdan cücərdi,torpağın şair övladı oldu və dedi:

***Axır ki, göylərdən gördülər məni,***
***Sildilər üstümdən yalan adımı.***
***Qaytarıb özümə verdilər mənim***
***Torpağın altında qalan adımı.***

Şairə təvəllüd verdilər Dan gecəsini-göyün yerə Haqqın salamını çatdırdığı gecəni,göyün yerə gələcək şairin məramını pıçıldadığı gecəni...

***Yer üzünə Haqqın göylər üzündən***
***Salamını yetirməyə gəlmişəm.***
***Bölüşdürüb günahını Adəmin***
***İlim-ilim itirməyə gəlmişəm.***

***...Adam var ki,bayaq gəlib dünyaya,***
***Adam deyil,ayaq gəlib dünyaya.***
***Qəlbim məndən qabaq gəlib dünyaya,***
***Ayaq altdan götürməyə gəlmişəm.***

Əslində bu misralar onun yaradıcılıq yolunun istiqamətini özündə ehtiva edir.

Şair demək istəyir ki,mən dünyaya ona görə gəlməmişəm ki,hökmən şair olum,ona görə gəlmişəm ki, məndən qabaq dünyaya gəlmiş qəlbimi (qəlbləri)ayaq altdan götürə bilim. Bu məramla,bu eşqlə Barat Vüsal üzünü tanrıya tutub göyləri -yerləri seyr edə-edə bildirib ki, torpaq(yer)adi məkan deyil . Şair yerin tanrının kölgəsi olduğunu hiss edib və yazıb:

***Bu Günəş o Ay, ulduz,***
***Yer tanrının kölgəsi...***

Bu sözləri (pıçıltını)şair Dan gecəsindən -yerin göylə qucaqlaşdığı gecədən,suların göyə,adamların yerə səcdə etdiyi gecədən,sözün ruhlaşdığı gecədən eşitmişdi. Eşitdiklərini isə şair birər-birər könlünə toxuduqca özünün kim olduğunu bir az da daha yaxşı anlamışdı,naxışının gətirdiyini bilmişdi,demişdi:

***Naxışım tutubdu başdan,***
***And yeri olubdu adım.***
***Təzə qanad taxmamışam,***
***Haqdan çıxıbdı qanadım,***
***Mənim adım and yeridi!***

Özü qanadlanan şair sözə də qanad verə bilir.

Bir də ki,özünü tanıdıqca insan daha güclü olmurmu?Bu baxımdan Barat Vüsalın adının and yeri olmasını nişan verməsi çox təbiidir.

### “ƏN ÇOX SEVDİYİM ŞAİR - SÖZDÜR”

Müqəddəs kəlamların birində Məhəmməd peyğəmbər buyurub:”Tanrıya sözdən yaxın sədəqə yoxdur.”

Hər kəsə məlumdur ki,söhbət adi sözdən yox,ilahi sözdən gedir. Bunu ”İlahidən gəlməyəndə o sözü geri qaytarın”deyən Barat Vüsal nəinki yaxşı bilir,hətta hesab edir ki:

***Bir müqəddəs yazı itib,***
***Tapan gərək, izi itib.***
***Allahın bir sözü itib,***
***Şair o sözü axtarır.***

Şair onu da yaxşı bilir ki,Mövlana Fuzili ”İnsanda sözdən dəyərli gövhər tapmadım”deyib .O sözdən söhbət gedir ki, şeirə dönəndə (İlahidən gələndə!) ”Şeir səni Sidrədə oturan bir şəxs edər!”(Nizami).

O sözdən danışırıq ki, ondan C.Rumi demişkən ”Könül qoxusu gəlir”.

Və nəhayət, o sözdən söhbət açırıq ki, B.Vüsal onunla haqqa salam verib, onunla düz-çörək kəsib. ”Başqa cürə olammaram, sözlə duz-çörək kəsmişəm” deyən şairin əcaba bu yüksək məqamdan danışmamağa haqqı varmı?

Sözdən soruşaq...

Sözə and içən şair heç zaman sözə xəyanət etmədi, onun dəyərini, qədrini bildi, sözün qulu oldu, sözünün ağası oldu.Sözün dəyərinin çörək kimi müqəddəs olduğunu bildi, dedi:

***Mən sözün quluyam, sözün şahıyam,***
***Sazın köynəyindən keçmiş şairəm.***

Söz dilində çiçəkləndi şairin. Söz dilində qılınca döndü, qalxan oldu. Söz şair üçün ocaq oldu, şəxsiyyət oldu, ozana döndü, qopuz oldu. Nəhayət, ən mübarək, ən müqəddəs sözlər isə Tanrıya ünvanladı:

***Bir söz de, qışa yox, yazacan olsun,***
***Bir söz de, qopuzdan sazacan olsun.***
***Könül açan olsun, göz açan olsun,***
***Adama xoş gələn söz-söhbətdən qaç,***
***Allaha xoş gələn bir söz de, qardaş!***

Məncə, indiyəcən bütün yaradıcılığı boyunca Barat Vüsal elə söz (lər) dedi, yazdı ki, Allaha da xoş gəldi, bəndəyə də.

***”Könüllər mülkünün ziyarətinə evdən baş götürüb qaçmış şairəm” deyəndə də, şeir yazmağa yox,könül ziyarətinə qaçanda da o,haqlı idi.***

***Livanlı filosof -yazıçı Cübran Xəlil Cübranın məşhur bir fikri var:***

***”Xalqı dirçəldən ən böyük qüvvələrdən biri şair sözüdür.”***

Barat Vüsal həmin sözü çiçək-çiçək, ulduz-ulduz səpir yer üzünə, göy üzünə, könül mülkünə. Və təkcə özünün sözünü demir, hər kəsin, hər şeyin sözünü deyir:

***Sözü mənə pıçıldayır ağaclar,***
***Mən daşların sirr sözünü deyirəm.***
***Müqəddəsdir söz deyilən, bilirəm,***
***Ocaq sözü, pir sözünü deyirəm.***

Çox maraqlıdır ki, B.Vüsalın ən çox sevdiyi şair də Sözdür! Özünün və hamının olan Söz! O, çalışır ki, hamının, hər şeyin sözünü desin, bəlkə onda öz sözünü demiş olur.

***Barat, mənmi öz sözümü demirəm,***
***Kim deyir ki, düz sözümü demirəm?***
***Bir adamın yüz sözünü demirəm,***
***Yüz adamın bir sözünü deyirəm!***

Şairin missiyasının nə olduğu, şairliyin nə olduğu göründüyü kimi, hamının o qədər də asanlıqla başa düşdüyü, anladığı adi bir şey deyil!

B.Vüsal öz poeziyasında sözün vüqarını, qürurunu, saflığını, kəsərliliyini qoruyub saxlayıb, sözə həmişə nəfəs verib, onu ölməyə qoymayanlardan olub, deyib:

***Qoymayın ölsün, dirildin,***
***Sözü ölümdən qurtarın!***

Hər şeirini oxuduqca Sözlə duz-çörək kəsən şairin heç vaxt sözə, kəsdiyi duz-çörəyə xilaf çıxmadığını görürük.

Hər dəfə baxırıq ki, əli də doludur, gözü-könlü də! Boş vaxtı yoxdur. Sözünü deyir, Sazını çalır. ”Sazdı sinəsində, sözdü dilində!” Barat Vüsalı sevən oxuculara bildirmək istəyirəm ki, gəlin həmişə onu da izləyək, oxuyaq, Söz karvanına qoşulaq, hərdənbir ayaq saxlayaq, nəfəs dərək.

**Allaha da xoş gedər!**

**Ağac kölgəsində dincəldiyimiz, kölgələndiyimiz bəsdir. Bir az da şair Məmməd Alim demişkən ”Sözün kölgəsində dincələk.”**

**Yolumuza davam edərik...**

**Gülnar Osmanova,**
**Qazax rayonu, Dəmirçilər**
**kənd orta məktəbinin**
**tədris hissə müdiri**

## "Əsirlikdən qayıdan lampa"



***Vətənpərvərlik mövzusuna daim önəm verən Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Xocalı faciəsinin növbəti ildönümü ərəfəsində yeni bir layihə hazırlayıb. Teatrın kollektivi "Əsirlikdən qayıdan lampa" adlı qısametrajlı film hazırlayaraq tamaşaçıların ixtiyarına verib.***

***"Gənclər ümidləri ilə, qocalar xatirələri ilə yaşayır. Bu xatirələr köhnəlsə də heç zaman unudulmur"-deyən filmin qəhrəmanı Xocalıda doğulub, xoşbəxt, qayğısız uşaqlıq illəri bu şəhərdə keçib. Amma sevinc dolu günlər uzun sürmür, 1991-ci il fevralın 26-da Xocalıya hücum edən ermənilər atasını vəhşicəsinə qətlə yetirirlər.***

***Həmin dəhşətli gecədən sonra anası oğlunu götürüb o evi, o şəhəri tərk etməyə məcbur olur.***

***Vətən müharibəsində rəşadətli ordumuzun sıralarına qoşulan həmin oğlan torpaqlarımızı erməni işğalçılarından azad edəcəyinə, anasını Xocalıdakı evlərinə qaytaracağına söz verir. Azərbaycanın böyük Zəfəri ilə bitən 44 günlük müharibədə yaralanansa, dəfələrlə ölümlə üzüzə qalsa da verdiyi sözə əməl edir.***

***Xoşbəxt uşaqlıq günlərinin şahidi olan evlərini ziyarət edir, Xocalıdakı doğma həyətdən tapdığı lampanı anasına hədiyyə gətirir, bir ovuc torpağı Bakıda Xocalı qurbanlarının şərəfinə ucaldılan abidənin üzərinə səpir.***

***"Əsirlikdən qayıdan lampa" qısametrajlı filmin ssenari müəllifi və quruluşçu rejissoru Samir Qulamov, quruluşçu operatoru Hikmət Şahverdizadə, baş prodüseri Ülvi Cəfərov, quruluş hissə müdiri Qabil Gözəlovdur.***

***Geyimləri Aynişan Məmmədova hazırlayıb.***

***Filmin ideya müəllifi Əməkdar incəsənət xadimi, tanınmış teatr rejissoru Əsgər Əsgərovdur.***

***Layihənin bədii rəhbəri isə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayevdir.***

***"Əsirlikdən qayıdan lampa" qısametrajlı filmində rollara Nicat Əli, İrana Kərimova, Şaban Cəfərov, Güldanə Əzimova və Muhammed Qulamov çəkiliblər.***



# MƏMMƏD SƏİD ORDUBADİNİN NİZAMİŞÜNASLIQ FƏALİYYƏTİ



**Əlimuxtar Muxtarov**
**Filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi**

(əvvəli ötən sayımızda)

**"Qılınc və qələm" yüksək fəlsəfi , əxlaqi və siyasi ictamai fikirlərlə çoxk zəngindir.Bu qiymətli və böyük tərbiyəvi əhəmiyyəti olan fikirlərin bir qismi bilavaistə müəllifin - Ordubadinin fikirləri, bir qismi də bilavasitə Niaminin fikirləridir. Romanda, o yerdə ki Nizami danışır, onun dilində təbiət, cəmiyyət, əxlaq - tərbiyə və s. haqqında sözlər Nizaminin əsərlərində olan fikirlərlə tam uyğun gəlir. Məsələn, "Sevgi Fəlsəfəsi yerinə həyat fəlsəfəsi" fəslində Nizaminin dili ilə varlıq, inkişaf ,hərəkət, səbəb, nəticə , idealist fəlsəfə, təriqətlərin tənqidi və s. haqqında deyilən sözlər Nizaminin əsərlərindəki fikirlərə tam uyğun gəlir. "Qızıl Arslan" , "Nizami və Əbubəkir" fəsillərində ədalətli şah haqqındakı fikirlər də Nizaminin fikirlərinə tam uyğundur.**

### *Romanda*

Nizaminin dilində şairin əsərlərində olmayan fikirlər də vardır. Məsələn xəlifəliyə qarşı mübarizə, Azərbaycanın birləşdirilməsi ideyası və s. kimi . Lakin belə fikirlər əsərdə az yer tutur. Əsərdə elə yerlər də vardır ki, orada Nizaminin fəlsəfəsi, estetik və siyasi ictimai fikirləri, arzuları müəllifin öz üzərindən qopan fikirlər, arzular kimi səslənir.

Məsələn, "Gözələ" və "Pürsaət kəndində" fəsillərində Nizaminin utopiyasını , bərabərlik , qardaşlıq haqqında humanist fikirlərini müəllif ölməz ideyalar hesab edir . Belə hallarda Nizaminin müdrük nəsihətləri, mütərəqqi fəlsəfi - əxlaqi görüşlərilə müəllifin görüşləri arasında bir-birini tamamlayan bir ahəngdarlıq yaranır .

***M.S.Ordubadi Nizamini öz qəhrəman xalqı, gözəl vətəni ilə fəxr edən böyük vətənpərvər kimi təsvir edir. Nizami dərin iftixar hissi ilə qeyd edir ki, azərbaycanlılar Şərqdə yüksək mədəniyyətin yaradıcıları olmuşlar . O, öz yaxin dostlarını və həmfikirlərini bu çoxəsrli mədəniyyəti qorumağa , inkişaf etdirməyə çağırır. Bunun üçün isə azadlıq , istiqlaliyyət , yadelli qəsibkarlara və hökmdarlara qarşı mübarizədə xalqın sarsılmaz birliyi lazımdır . Nizami öz dostu - xalq qəhrəmanı sərkərdə Fəxrəddinə deyir : " hökmdarları diz çökdürəcək yeganə bir qüvvə olmuşsa və varsa , o da yalnız xalqın birliyidir . . . Bütün xalqın birliyi-Fəxrəddin surəti romanın əsas qəhrəmanlarından biridir . Babək nəslindən olan bu milli qəhrəman xalqın işinə sadiq , mərd, mübariz oğlandır . Nizami romanda xalqın zəkasını, istedadını təcəssüm etdirirsə , Fəxrəddin elin düşmənə zərbə vuran əli, kəskin qılıncıdır. Qılınc və qələmin döyüş rəşadəti xalqa şərəflə xidmət edir.***

Romanın əvvəlində Fəxrəddinin də Nizami kimi hələ çox gəncdir . Şair onunla uşaqlıqdan ömrünün axrınadək dostluq edir, ayrılmır . Onların dostluğunu möhkəmləndirəcək elə sədaqətdir . Nizaminin müdrük məsləhətlərini diqqətlə dinləyən, onlara əməl edən Fəxrəddin ölkənin siyasi həyatında , Azərbaycan xalqının xilafət əsarətinə qarşı mübarizəsində çox mühüm rol oynayır .

M.S.Ordubadi yeri gəldikcə romanda Nizaminin estetik görüşlərini də ədəbiyyat və incəsənətin ictimai vəzifələrinə, sənətkarın vətəndaşlıq borcuna münasibətini , baxışlarını da göstərir . Nizami deyir ki , söz ustasının ən yüksək ləyaqəti xalq içərisində yaşamaq , xalq üçün yazıb yaratmaqdır . Şair heç şübhə etmir ki , həyata şah saraylarının uca qülləsindən baxaraq yalnız ali cəmiyyətin üçün , şahlar və əyanlar üçün , həm də sərvət naminə yazanlar , sadə xalqın ehtiyac və dərdlərinin duymayanlar , zamanın mühüm siyasi-ictimai hadisələrinə biganəlik göstərənlər böyük sənət əsərləri yaza bilməzlər . Nizami romanda deyir : " Layiqsiz və xain hökmdarları tərif edən şairlər zinətli sütunları altında bəslənən tor atanların vəzifəsini bitirirlər .Öz yazdıqları mədhamələrlə avam xalqın şüurunu aldadıb ovlayaraq , xaqanların və xəlifələrin pəncəsinə tapşırırlar . Onlar yazan mədhnamələr də Azərbaycan kəndlisini qırıb məhv edən silahların cərgəsində işlənir . Qarət və talanlarda , haqsızlıq və xəyanətlərdə onların qələmləri də iştirak edir".

***"Doğrudan da məndə bir əzəmət vardırsa , o mənim deyil , Azərbaycan xalqınındır , çünki mən bu məmləkətin oğluyam . . . Şair öz ilham mənbələrindən ayrıldığı zaman, kütlələrin içərisindən çıxıb dörd divarın içərisində nazlandığı və mürgülədiyi zaman onun təbi nə vasitə ilə genişlənə bilər? O haradan ilham ala bilər? Cahanşümul şair olmaq cahanın hadisələri içərisindən süzülüb çıxmaq lazımdır. Bir şairin təbi nə qədər işıqlı olursa-olsun, saray içərisindən bir günəş kimi işıq sala bilməz".***

### *Nizami həyat və sənətin*

müxtəlif problemləri barədə Qətibə ilə və başqa personajlarla söhbət edir, mübahisə edir. Onu çox şey düşündürür - varlığın mahiyyəti, həyatın mənası, sevgi və insanın ictimsi borcu, dövləti idarə üsulları, xalqların mədəniyyəti, qadının cəmiyyətdə rolu...

Bu məsələlərin hər biri haqqında rəyini söyləyərkən Nizami zəmanəsinin qabaqcıl , tərəqqilər, humanist şairi və mütəfəkkiri kimi fəsildən - fəslə oxucunun nəzərində bütün tükənməz mənəvi əzəməti ilə ucalır.

Onun qadın azadlığı məsələsinə münasibətində böyük insanpərəstliyi xüsusilə aydın görünür. Nizami öz əsərlərində yazdığı kimi , romanda da qadınların zəka , istedad və sənətdə kişilərdən heç də əskik olmadıqlarını dönə-dönə qeyd edir, qadın hüquqlarını müdafiə edir , qadınların cəmiyyətdəki , gənc nəsillərin tərbiyəvi işindəki rolunun yüksək qiymətləndirir.

Əsərin fəsillərindən birində Nizami qızların musiqi və mahnılarını, şeirlərini dinlədikdən, onların rəqslərinə tamaşa etdikdən sonra deyir:

***"Mən bu gün bir daha qadının incəsənət işlərində kişilərdən daha yüksəkdə durduğunu gözümlə gördüm . Burada öz sənətlərini nümayiş etdirən qadınlar incəsənətin ən yuxarı dərəcəsini mənimsəmişlər. Buna çox da təəccüb etməməliyik , çünki qadının özü də təbiətin bir çox möcüzələri çərgəsində incəsənət adlanır . Bunun üçün də mən hörmət bəslədiyim böyük İran şairi Firdovsi ilə qadın məcələsində barışa bilmədim . Böyük Firdovsi bu məclisdə olsaydı , özünün tərbiyə qanunları əleyhinə yazdığı şeirlərini cırıb atardı".***

Nizami qadın azadlığı haqqında fikirlərinin , həyatda , mübarizədə əməli işi , çoxcəhətli fəaliyyəti ilə də təsdiq edir - onun sözü ilə əməli arasında qırılmaz birlik var . Çox çətin şəraitdə, həyatını müdhiş təhlükə altına salaraq, Nizami şairə Məhsəti xanımı cahillərin , din fanatiklərinin divanından xilas edir, onun sürgündən vətənə qayıtmasına nail olur, böyük şairəni qayğıkeş oğul kimi öz öz evində qoruyub saxlayır.

### *Bu tarixin romanın elmi tədqiqatlarda təhlili*

məsələlərinin kulminasiya nöqtəsində isə Yavuz Axundlunun adı durur.

Buna görə də təhlillərimiz zamanı Y.Axundlunun fikirlərinə müraciətimiz təbiidir. Y.Axundlu M.S.Ordubadini ədəbiyyat tariximizdə tarixi roman janrının banisi kimi dəyərləndirərk yazır: "Məmməd Səid Ordubadi Azərbaycan tarixi roman məktəbinin banisi kimi şöhrət qazanmışdır. Ədibin tarixi romanları ilə Azərbaycanda milli tarixi romançılıq ənənəsinin əsas prinsipləri də formalaşmışdır. Böyük tarixi romançı Məmməd Səid Ordubadinin romanlarından hər biri əhatə etdiyi epoxanın kamil sənət güzgüsüdür.

"Qılınc və qələm" tarixi romanı Azərbaycan tarixinin Nizami dövrünün ədəbi salnaməsidir. Yüksək sənətkarlıq nümunəsi olan bu möhtəşəm bədii əsər Azərbaycan ədəbiyyatında tarixi roman janrının zirvəsində dayanır. Əsərdəki obrazlar tarixiliklə bədii təfəkkürün vəhdətindən yoğrulmuş parlaq, bənzərsiz surətlər kimi Azərbaycan ədəbiyyatını zənginləşdirir. "Qılınc və qələm" tarixi romanı XII əsr tarixinin də misilsiz zəngin mənbəyi sayılmağa layiqdir. "Qılınc və qələm" tarixi romanı ədəbiyyatşünaslar üçün olduğu qədər tarixçilərdən ötrü də əhəmiyyətli qaynaqdır. "Qılınc və qələm" Nizami Gəncəvinin və müasirlərinin romanı, Nizami epoxasının ədəbiyyat üslubunda yazılmış tarixidir".

***"Qılınc və qələm" tarixi romanı Azərbaycan Atabəyləri dövlətinin möhtəşəm ədəbi abidəsidir. Məmməd Səid Ordubadi "Qılınc və qələm" tarixi romanında qılıncın məsuliyyətini və şərəfini qələmin qüdrəti ilə təsbit etmişdir. Eyni zamanda, qələmin də qüdrət və məsuliyyəti böyük sənətkarlıqla mənalandırılmışdır. Nəticə etibarilə bu əsər ölkə maraqları miqyasında qılıncla qələmin birliyi zərurətinin ədəbi həllidir. Uzaqgörən müdrik yazıçı qılıncın və qələmin ittifaqına böyük gələcəyə "bütün Azərbaycanı hazırlamaq" işinin əsas qayəsi kimi baxmışdır.***

Romanda Nizami Gəncəvinin sərkərdə Fəxrəddinə dediyi aşağıdakı sözlər ölkənin taleyində qılıncın və qələmin vəhdətinin diqqət mərkəzinə çəkilməsinin zəruriliyi barədə yazıçının görüşlərini daha aydın şəkildə başa düşməyə şərait yaradır:

"Sənə bir məsləhət verəcəyəm. İndi ki qılınc və mizraq işlətməyə, ox və kaman işləri ilə məşğul olmağa həvəsin vardır, onları yaxşı öyrən. Mən də qələm işlərində yüksək mərtəbə əldə etməyə çalışacağam. Bunların ikisi də bizə lazımdır" .

"Qılınc və qələm" tarixi romanındakı "qəhrəmanlıq yalnız silah deyil, bilik də tələb edir" kimi fikirlər qılıncla qələmin birliyinə çağırışın ifadəsi kimi səslənir.

Yavuz Axundlu "Qılınc və qələm" əsərini Azərbaycan ədəbiyyatını və tarixini saxtalaşdırmağa cəhd edən sovet ideologiyasına qarşı da tutarlı cavab kimi dəyərləndirirdi:

"Məmməd Səid Ordubadinin qılıncla qələmin birliyi ideyasını tarixi romanda keçmiş epoxanın fonunda ifadə etməsi həm də əsas mətləbin sovet ideologiyasının diqqətindən yayındırılması üçün düşünülmüş bədii forma kimi görünür. Bəlkə də "Qılınc və qələm" tarixi romanını özünü zor gücünə fəhlə-kəndli hökuməti kimi elan etmiş və ziyalını, yeni qələmi arxa plana keçirmiş sovet dövlətinə bu işin sonrakı aqibəti barədə xəbərdarlığı idi".

### *Bu mənada "Qılınc və qələm"*

müstəqil Azərbaycanın romanıdır. Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında ümid etdiyi qılıncın və qələmin birliyi əsasında yaranan milli dövlətçilik ideyası Azərbaycanda dövlət müstəqilliyinin qurulması ilə həyata keçirilmişdir".

**Tarixi modernizə edib, bu qənaətə gəlirik ki, dahi söz ustadının əziz xatirəsinə həsr edilmiş "Qılınc və Qələm" romanının adı da müasir dövrümüzlə, xüsusilə Vətən Müharibəsində əldə etdiyimiz qələbə ilə çox səsləşir.Belə ki, metanomik yanaşma ilə deyə bilərik ki, 2020-ci il ərazi bütövlüyümüzün bərpası anlamında qılınc ili kimi yaddaşlara hopduğu kimi, 2021-ci ilin də milli birliyimizin təntənəsi fonunda dahi Nizaminin qələminin, elminin, mənəviyyatının xeyir-duası ilə böyük qayıdış erasını Müstəqil dövlətimizlə həyata keçirəcəyik.**

*"Sənətin fəlsəfəsi insan fenomeninin araşdırılması olmalıdır. İnsanın qurduğu cəmiyyət və həmin cəmiyyətin sonradan insanın əleyhinə durması olmalıdır. Teatr yarananda mənə elə gəlir ki, məhz bu prizmalardan yaranıb və biz də nə eksperiment etsək, hamısını insan müstəvisində etməliyik". "Ədalət" qəzetinin qonağı Əməkdar incəsənət xadimi, teatr rejissoru Bəhram Osmanovdur.*

# "Qarabağ Azərbaycan xalqının ibadət yeridir"

**Bəhram müəllim, müsahibəmizə elə Qarabağ tamaşalarınızdan söhbətlə başlayaq...**

-Azərbaycanın müstəqillik uğrunda gedən mübarizəsində Qarabağ Azərbaycan xalqı üçün nəinki bir ərazi, həm də bütövlükdə bir ibadət yeri olmuşdur. Təbii ki, indi də ibadət yeridir. Qarabağla bağlı məlum hadisələr bütün sənət



adamlarını bədii, rəsm, musiqi, teatr və kino işləri görməyə səfərbər etmişdir. Və bu səfərbərlik ancaq vətənpərvərlikdən ibarət deyildi, bu həm də bir araşdırma idi. Tarixin ağ ləkələrini təmizləmək istəyi idi. Kimlərsə bu istəyə oğrun-oğrun yaxınlaşırdılar, kimlərsə bu hadisələri anlamaq üçün zaman tələb edirdi, kimlərsə qorxurdu, kimlərsə emosiyaya qapılaraq öz bədii əsərlərinin yaranmasına rəvac verirdilər. Akademik Milli Dram Teatrında işləyərkən mən xalq artisti Ramiz Novruzun böyük bir sevgi ilə, emosionallıqla vətənpərvər ruhda hazırlanan "Hələ sevirəm deməmişdilər" əsərini tamaşaya qoydum. Bu pyes istər Azərbaycan dramaturgiyasında, istərsə də teatr sənətində ilk qaranquş idi. Və sizə deyim ki, heç bir teatr bu tamaşadan sonra həmin pyesi hazırlamaq qərarına gəlmədi, çünki biz obrazlar üzərində o qədər dəqiq işləmişdik ki, əsərdə yazılan personajları bizim teatrın aktyorlarından başqa heç bir teatrda oynamaq mümkün deyildi. Ələxüsus Nurəddin Mehdixanlı və Münəvvər Əliyeva seçilirdi bu tamaşada.

**-"Ana intiqamı", "Xəcalət" tamaşasından söhbət açaq...**

-Vidadi Babanlının "Ana intiqamı" pyesi bütövlükdə xalq artisti Leyla Bədirbəylinin adı ilə bağlıdır. Həmişə lirik qəhrəmanlar ustası olan Leyla xanım hər an oğlunun intiqamını ala biləcək bir ana obrazı yaratdı və sübut etdi ki, Azərbaycan anası nə qədər intiqam haqqında düşünsə də heç vaxt qəddar ola bilmir. Hüseynbala Mirələmov yazdığı "Xəcalət" pyesi isə Qarabağ mövzusunda olan əsərlər içərisində yeni bir məzmunu əks etdirirdi. Bu baş verən hadisələr zəminində həqiqətin bir üzlü yox, iki üzlü olmasını göstərirdi. Lakin buna baxmayaraq Vətəni həqiqi mənada sevən onun vətəndaşları nə olursa, olsun, həqiqətin bir üzlü olduğunu sübut etməyə çalışırdılar. Və bu sübut Ölkə Rəhbəri Cənab İlham Əliyevin dediyi kimi, Qarabağın sübutudur, "Qarabağ Azərbaycandır". Bədii əsərin, teatrın əsas işi birdə ondan ibarətdir ki, yaşadığı dövrü qabağlaya bilsin. Görünür, yaradıcı kollektiv bu tamaşa ilə dövrü qabaqlaya bilmişdi.

## *"Hər kəsin bir baxış bucağı var"*

**-Bu gün teatrlarımızda hərbi-Vətənpərvərlik mövzusunda olan tamaşalar azlıq təşkil edir. Səbəb nədir?**

-Hərbi-Vətənpərvərlik mövzusu həmişə çətin olub, bu gün də çətindir, sabah da çətin olacaq. Çünki yuxarıda sadaladığım pyeslərin tamaşa halına çevrilməsi üçün bəzən 5 il, 10 il vaxt lazım olur. Vətənpərvərlik anlayışını hərə bir cür başa düşür. Hər kəsin bir baxış bucağı var, ona görə də gərək tələsmədən ümumiləşdirmiş elə bir obraz tapasan ki, hamı onu qəbul eləsin. Bu mövzuda əsərin yazılması üçün vaxt lazımdır.

**-Bir rejissor kimi sizə bir sual ünvanlamaq istəyirəm. Son dövrlər hərbi mövzuda çəkilmiş hansı filmləri bəyənirsiniz?**

-Aqil Abbasın əsərinin ssenarisi əsasında çəkilən "Dolu" filmini qeyd edərdim.

**-Azərbaycan tamaçaçısı bir o qədər də teatral deyil. Davam edən vəziyyətin, karantinin buna təsiri olacaqmı?**

-Sizinlə mübahisə eləmək istəmirəm. Azərbaycan tamaşaçısı üçün bu sözü demək nahaqdır, çünki dünya sosioloqları sübut edir ki, teatrı olan şəhər əhalisinin 3-5% əgər teatrla maraqlanırsa, bu həmin sənətin inkişafı və lazımlı olması deməkdir. Mənim nəzərimdə bu 3-5% Azərbaycanda mövcuddur. Əgər bu belə olmasaydı, bir az öncə sadaladığım səhnə əsərləri də yaranmazdı.

## *"Tamaşaçısız teatr teatr deyil"*

**-Repertuar seçimində hansı meyarlara diqqət yetirirsiniz?**

-Repertuar seçimində hər bir teatr rəhbərinin zövqü müxtəlifdir. İşlədiyin teatrın janrını mütləq nəzərə alıb repertuar siyasətini təşkil etməlisən. Düzgün repertuar təkcə aktyorların inkişafına yox, eyni zamanda teatra tamaşaçının gəlməsinə yönəlir. Bunu mütləq nəzərə almaq lazımdır. Tamaşaçısız teatr teatr deyil.

**-Sənətin fəlsəfəsi nədən ibarət olmalıdır?**

-Sənətin fəlsəfəsi insan fenomeninin araşdırılması olmalıdır. İnsanın qurduğu cəmiyyət və həmin cəmiyyətin sonradan insanın əleyhinə durması olmalıdır. Teatr yarananda mənə elə gəlir ki, məhz bu prizmalardan yaranıb və biz də nə eksperiment etsək, hamısını insan müstəvisində etməliyik. Belə daha yaxşı olar.

**-Müasir dramaturgiyanın vəziyyətini necə qiymətləndirirsiniz?**

-Dramaturgiya ədəbiyyatın çox çətin növüdür. Ölkəmiz üçün deyə bilərəm ki, müxtəlif yaş həddinə malik dramaturqlarımız var. Gənc Tamaşaçılar Teatrının afişalarına nəzər yetirməklə onları tanımaq olar. Mən həmin dramturqlara təşəkkür edirəm ki, teatrı sevirlər və teatr üçün çalışırlar.

**-Mən də sizə təşəkkür edirəm ki, dəvətimi qəbul edib müsahibə verdiniz...**

-Mən sizə "çox sağ olun" deyirəm.

**Rövşən Tahir**

<u>*Rəsmiyyə Heybətağaqızı*</u>



## *Xocalı*

*Qopdu tufan kimi top-tüfəng səsi,*
*Yurdumu viranə qoydu o gecə.*
*Cavanın, qocanın ahı-naləsi,*
*Bağrımın başını oydu o gecə.*

*Günahsız körpənin, qızın, gəlinin,*
*Köksünü süngüylə oydular o gün.*
*Yurdun dağıtdılar vallah bir elin,*
*Şəhəri viranə qoydular o gün.*

*Minlərlə insanın axdı göz yaşı,*
*Soldu bir şəhərin gülər camalı.*
*Qana bələdilər torpağı, daşı,*
*Yerlə-yeksan oldu qədim Xocalı.*

*O gecə göylər də susdu, kiridi,*
*Qız-gəlin tək qaldı düşmən əlində.*
*Bir elin üstünə tanklar yeridi,*
*Bir dəhşət yaşandı, Oğuz elində.*

*Keçsə də əsrlər, keçsə də illər,*
*O günü unudan olmayacaqdır.*
*Eşitsin bu dünya, eşitsin ellər,*
*Qisas qiyamətə qalmayacaqdır.*

## *İbrahimoviç: "Ronaldo dünyanın ən yaxşısıdır"*

**"Milan"ın futbolçusu Zlatan İbrahimoviç komandanın sabiq oyunçusu Ronaldo Nazario barədə danışıb.**

**Qol.az xəbər verir ki, 39 yaşlı hücumçu 44 yaşlı keçmiş forvardın dünyanın ən yaxşı futbolçusu olduğunu deyib: "Ronaldo haqqında əlavə izah vermək lazım deyil. O, mükəmməl bir oyunçu idi. Mən həmişə demişəm ki, futbol oynayan da var, futboçun özü olan da. Ronaldo futbolun özü idi. Hamı onun kimi oynamaq istəyirdi. İlan kimi hərəkətləri, driblinqi, addımları ilə futbolu tamamilə dəyişirdi. Mənə görə o, futbol tarixinin ən yaxşı oyunçusudur".**




**Qeyd edək ki, Ronaldo karyerası ərzində "İnter", "Barselona", "Real" kimi komandalarda da çıxış edib. O, 1994-2011-ci illərdə Braziliya millisində oynayıb.**

## Avroliqada yeni rekord

*Avropa Liqasının 1/16 final mərhələsində yeni rekord qeydə alınıb.*

*Qol.az xəbər verir ki, bu mərhələnin mərhələnin 32 oyununda ümumilikdə 102 qol vurulub. Orta məhsuldarlıq 3,19-a bərabər olub. Belə nəticə isə turnirin tarixində ən yüksək göstərici hesab olunur. Qeyd edək ki, bundan əvvəl 1/16 finalda ən çox qol ötən mövsüm vurulmuşdu (95).*



Axundov Vaqif Əliyar oğluna, Daxili Qoşunların Baş idarəsi tərəfindən verilmiş 023946 No-li veteran kitabçası itdiyi üçün etibarsız sayılır.

***

Samux rayon Sərkar kənd sakini Yusifova Şəfa Filizman qızının adına verilmiş JN- 247 A kod: 50700048 saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Göygöl rayon Aqrar İslahat Komissiyası tərəfindən Yeni Qızılca kəndində Əliyev Rafail Nəsir oğlunun adına verilmiş 0.12 ha. həyətyanı torpaq sahəsinə aid JN-1535 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31, 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 67
Çapa imzalanmışdır: 26.02.2021